QARABAĞ AZƏRBAYCANDIR!

## Azərbaycan mədəniyyətinin BÖYÜK HİMAYƏDARI



8

SƏS
№ 020 (6703) 3 fevral 2023-cü il. Qiymәti 60 qəpik

## "Strateji tərəfdaşlar olaraq biz irəliyə doğru gedirik!"



2

# Dayanıqlı və keyfiyyətli turizm: hədəf və perspektivlər

2026-cı ildə Azərbaycana səfər edən əcnəbilərin sayı 4 milyon nəfərə çatdırılacaq



3

## Misirin beyin mərkəzi: "Azərbaycan Qoşulmama Hərəkatına ən uğurlu sədrlik edən ölkədir"

مركز الحوار للدراسات السياسية والإعلامية

4

## SOSİAL DÖVLƏTİN AZƏRBAYCAN MODELİ



5

## Martda 14 gün iş olmayacaq



16

## Rusiyalı politoloq: "İrəvan və Vardanyan Qərbin sifarişi ilə vəziyyəti gərginləşdirir"



15

## Bu İran nəmənə şeydirsə...



10

**Azərbaycan Respublikasına rəsmi səfərə gələn Rumıniya Prezidenti Klaus Yohannisin fevralın 2-də rəsmi qarşılanma mərasimi olub. Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı meydanda Rumıniya Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rumıniya Prezidenti Klaus Yohannisi qarşılayıb. Rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rumıniya Prezidenti Klaus Yohannis ilə təkbətək görüşü olub. Daha sonra Azərbaycan Prezidenti İlham Əliyev və Rumıniya Prezidenti Klaus Yohannis mətbuata bəyanatlarla çıxış ediblər.**

# "Strateji tərəfdaşlar olaraq biz irəliyə doğru gedirik!"

*Dünən Bakıda Azərbaycan Prezidenti İlham Əliyevin və Rumıniya Prezidenti Klaus Yohannisin görüşü olub*









Fevralın 2-də Azərbaycan Prezidenti İlham Əliyevin və Rumıniya Prezidenti Klaus Yohannisin geniş tərkibdə görüşü olub. Görüşdə çıxış edən Prezident İlham Əliyev deyib ki, Strateji tərəfdaşlar olaraq biz irəliyə doğru gedirik:

- Cənab Prezident, hörmətli Rumıniya nümayəndə heyətinin üzvləri.

Bir daha Azərbaycana xoş gəlmisiniz.

Biz indicə cənab Prezidentlə ikitərəfli gündəliyimizin geniş əhatəli məsələləri ilə bağlı çox yaxşı müzakirələr apardıq və bir daha əlaqələrimizin strateji əhəmiyyətini təsdiqlədik. Strateji tərəfdaşlar olaraq biz irəliyə doğru gedirik. Mənim Buxarestə səfərimlə bağlı yaxşı xatirələrim var və sözsüz ki, Buxarestdə imzalanmış sənəd həqiqətən də bizim qarşımızda yeni perspektivlər açır. Biz gələcək addımlarımızı geniş şəkildə müzakirə etdik və indi nümayəndə heyətləri üzvlərinin iştirakı ilə bunu davam etdirəcəyik. Eyni zamanda, biz artıq təbii qazın nəqli məsələsində tərəfdaş olmuşuq və bu da bizim əməkdaşlığımızda mühüm mərhələdir. Lakin, birmənalı olaraq, biz əməkdaşlığımızın daha geniş miqyasını arzu edirik, nəinki enerji, o cümlədən ticari işbirliyimizlə bağlı məsələləri də əhatə etməsini istəyirik.

Birgə iqtisadi komissiya ötən il görüşüb və bu il görüşəcək. Beləliklə, biz xüsusilə enerji gündəliyimizlə bağlı əməkdaşlıq üçün geniş perspektivləri nəzərə alaraq komissiyanın işini intensivləşdirəcəyik. Bütün digər sahələrdə ölkələrimiz arasındakı əlaqələr çox yaxşıdır. Əlbəttə ki, enerji layihələri tərəfdaşlığımızı gücləndirəcək.

Cənab Prezident və nümayəndə heyətinin üzvləri, bir daha xoş gəlmisiniz. Ölkəmizə səfərinizə görə təşəkkür edirəm. Sizi Azərbaycanda qarşılamaq böyük şərəfdir. Əminəm ki, səfər bizim gələcək əməkdaşlıq planlarımız üçün çox əhəmiyyətli olacaq. Bir daha xoş gəlmisiniz.

Rumıniya Prezidenti Klaus Yohannis:

- Çox sağ olun cənab Prezident. Hörmətli nümayəndə heyətlərinin üzvləri.

Həqiqətən bizim demək olar ki, uzun müzakirəmiz oldu. Lakin hesab edirəm ki, bu, mütləq şəkildə zəruri idi.

Çünki hər ikimiz tərəfdaşlığımızı daha da gücləndirmək əzmindəyik və daha yaxşı nəticələr əldə etmək istəyirik. Müxtəlif məsələlərlə bağlı fikir mübadiləsi apardıq və mediaya təşəkkürümüzü bildirdikdən sonra mən bu məsələlərin bəzilərini daha dərindən nəzərdən keçirə biləcəyəm. Heyətlərimizlə müzakirə etmək istədiyimiz iki və ya üç təfərrüatı nəzərdə tuturam.

**Tehranda Azərbaycan səfirliyində baş verən cinayəti nə izah etmək, nə də əsaslandırmaq mümkündür. Kimsə bunun təkcə bir terrorçunun cinayəti olduğunu desə də, mənə elə gəlir ki, bu, diqqətlə araşdırılmalıdır. "TASS" İnformasiya Agentliyinin baş direktorunun birinci müavini Mixail Qusman AZƏRTAC-ın müxbirinə müsahibəsində Azərbaycanın İrandakı səfirliyində törədilmiş terror aktını şərh edib.**

# Mixail Qusman: "Azərbaycan vəziyyəti düzgün qiymətləndirir və düşünürəm ki, İrandan izahat tələb edəcək"



Jurnalist İran rəsmiləri tərəfindən "bu cinayətlə bağlı ciddi araşdırma" aparmasının vacibliyini xüsusilə vurğulayaraq deyib: "Bu cinayətə səbəb nə olub? Cinayəti törədən şəxsin arxasında kimsə dayanıbmı? O, kiminləsə əlbir olubmu? Onu silahlandıran kimdir? "Kalaşnikov" avtomatının Tehranda mağazalarda satıldığını düşünmürəm. Bütün bunlar böyük suallar doğurur. İran mətbuatında uzun müddətdir ki, anti-Azərbaycan döyüşkən isteriya davam edir və bütün bunlar təbii ki, çox kədərlidir".

M. Qusman qeyd edib ki, terrorizmin milliyyəti yoxdur, o, sərt cavab və cəza tələb edir. "Azərbaycan Prezidenti İlham Əliyevin haqlı olaraq dediyi kimi, müasir dünyada terrorizmə yer yoxdur. Bu halda Azərbaycan vəziyyəti düzgün qiymətləndirir və düşünürəm ki, İrandan müvafiq izahat və qərarlar tələb edəcək. Əlavə etmək istəyirəm ki, bu cinayət nəticəsində əsl qəhrəman - səfirliyin mühafizə xidmətinin rəisi Orxan Əsgərov həlak olub, o, həyatı bahasına daha böyük bəlaların qarşısını alıb. Terrorçunun daha çox can almaq istədiyi aydın idi. Təhlükəsizlik xidmətinin digər əməkdaşları cinayətkarın cinayətini davam etdirməsinə mane olmasaydılar, daha da pis ola bilərdi. Orxan Əsgərovun ailəsinə başsağlığı verirəm. Bir daha Azərbaycan Prezidentinin ardınca təkrar etmək istəyirəm: dünyada terrorizmə yer yoxdur, onu bağışlamaq, ona bəraət qazandırmaq olmaz", - deyə o əlavə edib.

# Dayanıqlı və keyfiyyətli turizm: hədəf və perspektivlər

## 2026-cı ildə Azərbaycana səfər edən əcnəbilərin sayı 4 milyon nəfərə çatdırılacaq



Təbiəti, təbii sərvətləri, iqlimi, yeraltı və yerüstü sərvətləri ilə diqqətdə olan Azərbaycanda turizm sahəsində əldə olunan nailiyyətlər, həyata keçirilən Dövlət Proqramları, layihələr böyük uğurlara səbəb olub. Yaxın tarixi keçmişimizə nəzər salsaq görərik ki, müstəqillik qazandığımız ilk illərdə Azərbaycanda fəaliyyət göstərən ümumittifaq və beynəlxalq turist marşrutları ləğv olunmuşdur. Belə ki, həmin illərdə müharibə və sərhədlərdəki qeyri-stabil vəziyyət turizm sistemində bir sıra problemlərin yaranması ilə nəticələndi. Ötən əsrin 90-cı illərin sonunda turizmin inkişaf tendensiyası ölkənin ali qanunvericilik aktlarında əksini tapdı. Belə ki, Azərbaycanda turizm sahəsi dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrildi. Ölkənin mövcud turizm potensialının beynəlxalq aləmdə tanınması, turistlərin Azərbaycana çoxsaylı səfərlərinin təşkili, turizmin müxtəlif növlərinin inkişaf etdirilməsi, müasir turizm infrastrukturunun yaradılması və s. sahələrdə məqsədyönlü tədbirlər planı həyata keçirilməyə başlandı. 1999-cu ildə Ümummilli Lider Heydər Əliyev tərəfindən "Turizm haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" fərman imzalandı. Bu qanun Azərbaycanda turizm bazarının hüquqi əsaslarının bərqərar edilməsinə yönələn dövlət siyasətinin prinsiplərini, turizm fəaliyyətinin əsaslarını müəyyənləşdirdi, turizm sahəsində münasibətləri tənzimləyərək, sosial-iqtisadi inkişafı təmin edən vasitələrdən biri kimi turizm ehtiyatlarından səmərəli istifadə olunması qaydalarını müəyyən etdi.

Ümummilli Lider Heydər Əliyev tərəfindən təsdiq edilən "Azərbaycan Respublikasında turizmin inkişafına dair 2002-2005-ci illər üçün" Dövlət Proqramının tələblərinə uyğun olaraq, turizm sahəsində beynəlxalq standartlara cavab verən mehmanxanalar tikildi, ölkəyə bir sıra aparıcı beynəlxalq investisiya şirkətləri cəlb olundu. Ulu Öndər Heydər Əliyevin məqsədyönlü fəaliyyətini davam etdirən Azərbaycan Prezidenti İlham Əliyevin bütün sahələrə olduğu kimi, turizm sektoruna da ayırdığı diqqətin nəticəsi olaraq uğurlu nəticələr əldə edildi. Belə ki, Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamına əsasən, turizmin inkişafının yeni mərhələsinə təkan verəcək "Azərbaycan Respublikasında Turizmin İnkişafına dair 2008-2016-cı illər üçün Dövlət Proqramı" hazırlandı. Bu müddət ərzində nümayiş obyekti kimi istifadə olunması məqsədəuyğun hesab edilən bir sıra tarix-mədəniyyət abidələri bərpa edildi və turistlərin istifadəsinə verildi. Bütün görülən işlərlə yanaşı olaraq, ölkənin turizm potensialının beynəlxalq aləmdə tanınması məqsədilə Almaniya və Avstriya turizm şirkətləri və kütləvi informasiya vasitələrindən ibarət nümayəndələr üçün info-turlar təşkil edildi. Azərbaycanda ilk dəfə olaraq Turizm Filmləri Festivalı keçirildi. Turizm sahəsində əməkdaşlıq haqqında Hökumətlərarası Sazişlər çərçivəsində müəyyən işlər görüldü. Belə ki, son illərdə Azərbaycan ilə Moldova, Belorus, Qətər, Yunanıstan, Qazaxıstan, İordaniya Haşimiyyə Krallığı, Fransa və onlarla başqa dövlətlər arasında turizm sahəsində əməkdaşlıq haqqında sazişlər bağlandı.

### ÖLKƏ İQTİSADİYYATININ ƏSAS İNKİŞAF DAYAQLARINDAN BİRİNƏ ÇEVRİLƏN TURİZM

Respublikamızın turizm potensialını əks etdirən reklamlar xarici ölkələrdə nəşr edilən turizm xarakterli jurnallarda yerləşdirilməyə başlanıldı. Belə ki, "ABTA", "Travel İQ", "Faints and Projects", "TTG Russia", "Travel Unravelled", "Qde otdıxat", "Otdıx v Rossii", "World Travel Guide" və başqa mətbuatlarda Azərbaycan turizm potensialına diqqət ayrıldı. Hər il ardıcıl olaraq "AİTF" Beynəlxalq Turizm Sərgisi paytaxtımızda keçirildi. Bu sərgidə iştirak edən xarici ölkələrin turizm şirkətlərinin sayı ildən-ilə artmağa başladı.

"Azərbaycan Respublikasında 2010-2014-cü illərdə turizmin inkişafına dair Dövlət Proqramı" ölkədə turizmin rastlaşdığı problemlərin həll edilməsinə və turizm sahəsinin daha da inkişaf etdirilməsinə müsbət təsirini göstərmiş oldu. Müasir dövrümüzdə ölkədə yüksək iqtisadi, sosial və ekoloji tələblərə cavab verən müasir turizm sahəsinin formalaşdırılması və onun ölkə iqtisadiyyatının əsas inkişaf dayaqlarından birinə çevrilməsi təmin edilir. Turizm fəaliyyəti üçün əlverişli şəraitin mövcudluğu, turizm ehtiyatları, ölkənin zəngin coğrafi landşafta malik olması, xalqımızın qədim mədəni-tarixi irsi, eləcə də onun fauna və florası bu sahənin sürətli inkişafına yol açan əsas amillərdir.

Prezident İlham Əliyev tərəfindən turizmə göstərilən diqqətin nəticəsidir ki, bu gün Azərbaycan perspektivli turizm ölkəsinə çevirib. Son illər ərzində ölkəmizdə mehmanxana və mehmanxana tipli obyekt tikilərək istifadəyə verilib. Azərbaycanın turizm coğrafiyası genişlənib. Hazırda Azərbaycan turizmi yüksələn xətt üzrə inkişaf etməkdədir. Gün-gündən inkişaf edən respublikanın iqtisadiyyatında turizm sektoru prioritet sahəyə çevrilib. Ölkənin turizm sahəsinin təqdim etdiyi xidmətlərin keyfiyyət səviyyəsinin beynəlxalq standartlara uyğunluğunun təmin edilməsi, dünya turizm xidmətləri bazarında ölkə turizminin rəqabət qabiliyyətinin artırılması istiqamətində görülən işlər davamlı olaraq həyata keçirilir. Qədim tarixi abidələri, coğrafi şəraiti baxımından diqqətdə olan Azərbaycanın bir çox məkanlarına turistlərin axını davam etməkdədir. Ölkənin bütün regionlarında turizm fəaliyyətinin stimullaşdırılması, turizm sahəsinə yerli və xarici investisiyaların cəlb edilməsi, turizmin müxtəlif növlərinin inkişaf etdirilməsi, mehmanxanaların və digər turizm xidməti müəssisələri şəbəkəsinin genişləndirilməsi istiqamətində ardıcıl işlər görülməkdədir.

Hazırda dünya ölkələri arasında iqtisadi əlaqələrin sürətlə inkişaf etdiyi bir dövrdə turizm xarici iqtisadi fəaliyyətin ən dinamik inkişaf edən sahələrindən birinə çevrilib. Ölkənin müxtəlif bölgələrində turizmin fərqli növlərinin, sağlamlıq, qış, mədəni, işgüzar, ekoturizm və kənd turizmi kimi növlərinin inkişafına ciddi təsir göstərib.

### 2026-CI İLDƏ TURİZM XƏRCLƏMƏLƏRİ 2021-Cİ İLLƏ MÜQAYİSƏDƏ 4 DƏFƏ ARTARAQ 11,2 MİLYARD MANATA ÇATACAQ

Statistik məlumatlara istinadən deyə bilərik ki, 2022-ci ildə Azərbaycana dünyanın 178 ölkəsindən 1602,3 min və ya əvvəlki illə müqayisədə 2 dəfə çox əcnəbi və vətəndaşlığı olmayan şəxs gəlib. Gələnlərin 27,9 faizi Rusiya Federasiyası, 19,5 faizi Türkiyə, 10,6 faizi İran, 6,0 faizi Səudiyyə Ərəbistanı, 5,1 faizi Gürcüstan, 3,8 faizi Hindistan, 3,2 faizi Pakistan, 2,6 faizi Birləşmiş Ərəb Əmirlikləri, 1,9 faizi Qazaxıstan, 1,7 faizi Ukrayna, 1,6 faizi Özbəkistan, 1,5 faizi İsrail, 1,4 faizi Küveyt, hər birindən 1,2 faiz olmaqla Oman və Belarus, 10,8 faizi digər ölkələrin vətəndaşları olmuşdur. 2021-ci illə müqayisədə körfəz ölkələrindən gələnlərin sayı 2,3 dəfə artaraq 357,9 min nəfər, Avropa İttifaqına üzv ölkələrdən gələnlərin sayı 2,1 dəfə artaraq 73,3 min nəfər, MDB ölkələrindən gələnlərin sayı 1,9 dəfə artaraq 569,8 min nəfər olub.

Vurğulamaq yerinə düşər ki, 2022-ci ilin yanvar-noyabr aylarının ötən ilin eyni ayları ilə müqayisədə 2,1 dəfə artım müşahidə edilib. Azərbaycana səfər edən xarici vətəndaşlar içərisində ilk yerlərdə ardıcıl olaraq Rusiya, Türkiyə və İran gəlir. Sonrakı sıralamada Səudiyyə Ərəbistanı, Gürcüstan, Hindistan, Pakistan, BƏƏ, Qazaxıstan və digər ölkələr növbələşir. Türkiyə, Səudiyyə Ərəbistanı, Hindistan üzrə bərpa göstəriciləri 90 faizdən çoxdur. Belarus, Pakistan, İordaniya kimi ölkələr isə 2019-cu ildəki nəticələri üstələyib. Məlumdur ki, ötən il keçirilən Azərbaycan Turizm Sammitində xarici və daxili turizm üzrə növbəti 4 ilə hesablanmış hədəflər açıqlanıb. Növbəti 4 il üçün turizmin hərtərəfli inkişafına yönəlmiş 10 əsas təməl istiqamət üzrə hədəflər müəyyənləşdirilib. Bu hədəflər həm də "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial iqtisadi inkişaf Strategiyası"nda nəzərdə tutulan məqsəd və tapşırıqların icrasına istiqamətlənib. Əsas məqsəd Azərbaycanı dayanıqlı, əlçatan və keyfiyyətli turizm destinasiyasına çevirməkdir. Əsas hədəflərdən biri 2026-cı ildə Azərbaycana səfər edən əcnəbilərin sayını 4 milyon nəfərə, ölkə daxilində turizm səfəri edən yerli vətəndaşların sayını isə 6 milyon nəfərə çatdırmaqdır. 2026-cı ildə turizm xərclələmələri 2021-ci illə müqayisədə 4 dəfə artaraq 11,2 milyard manata çatacaq, bunun da 49 faizi, yaxud 5,5 milyard manatı əcnəbi turistlərin payına düşəcək. Ümumilikdə isə 2026-cı ildə turistlərin yerləşdirilməsi və ictimai iaşə sektorunda ÜDM istehsalı 2019-cu illə müqayisədə 1,5 dəfə artacaq, orta hesabla hər il turizm sektorunda 20 faiz artım qeydə alınacaqdır.

Odlar diyarı kimi səciyyələndirilən ölkəmizdə bu sahənin tərəqqisi üçün geniş potensial vardır. Təsadüfi deyildir ki, dünyada olan 11 iqlim qurşağından 9-u ölkəmizdədir. Ölkəmizin tarixi mədəniyyət abidələri var. Azərbaycanın ən məşhur turistik əhəmiyyətli Şəki Xan Sarayı, Nuhun qəbri, Naxçıvan diyarı, Qubanın Xınalıq kəndi, Qəbələ üzüm bağları, Talış dağları və s. turistlər üçün çox maraqlı məkanlardır. Ölkəmizdə mövcud olan qoruqları ziyarət edənlərin sayında son illərdə artım müşahidə edilir. Bu gün Azərbaycanda 28 tarixi qoruq var ki, onların 14-ü tarixi-mədəniyyət qoruğu, 8-i tarixi-memarlıq, 2-i tarixi-bədii qoruqdur. Təkcə Yanardağ həm tarixi-mədəniyyət, həm də təbiət qoruğu olaraq fəaliyyət göstərir. Qobustan Dövlət tarix-bədii qoruğu, Nardaran tarix-mədəniyyət qoruğu, Keşikçidağ Dövlət Tarix-Mədəniyyət Qoruğu, Lahıc Tarix-Mədəniyyət Qoruğu, "Çıraqqala" Tarixi-Memarlıq Qoruğu, "Şabran şəhəri" Tarixi Qoruğu, "Avey" Dövlət Tarix-Mədəniyyət Qoruğu və s. dövlət səviyyəsində qorunur və mühafizə olunur.

### DÜNYANIN SƏKKİZ APARICI OTEL BRENDİ PAYTAXTIMIZDADIR

Əlbəttə ki, Azərbaycanın bölgənin lider dövlətinə çevrilməsi dünyanın ən məşhur firma və şirkətlərinin, brendlərinin ölkəmizə diqqətinin artmasına səbəb olub. İqtisadi inkişaf nəticəsində turizm sektoruna da xüsusi dövlət qayğısı, o cümlədən sahibkarlıq fəaliyyətinə əlverişli mühitin yaradılması dünyanın tanınmış otel şirkətlərinin də ölkəmizə axınını gücləndirib. Əgər bu gün "Four Seasons", "Fairmont", "Mariott", "Hilton", "Kempinski", "Jumeirah", "Sheraton", "Hyatt" kimi dünyanın səkkiz aparıcı otel brendi Bakıdadırsa, artıq bu ölkəmizin inkişafının bir göstəricisidir. Belə brendlərə yalnız dünyanın ən inkişaf etmiş şəhərlərində təsadüf olunur. Bakıda beşulduzlu otellərin sayı durmadan artır. Beşulduzlu otellərdə rahat və gözəl yerləşmə, yüksək xidmət və cazibəli interyer diqqəti cəlb edir. Təbii ki, belə hotellərin inşası Azərbaycana gələn turistlərin marağının artmasında əhəmiyyətli rol oynayır. Bu gün nəinki paytaxt Bakıda, eləcə də Azərbaycanın bir çox yerlərində ən müasir səviyyədə otellər tikilib. Şimal-qərb zonasında, Şamaxıda, Qəbələdə, Şəkidə, Qubada və başqa məkanlarda müasir tələblərə cavab verən otellər inşa edilib. Bütün bunlar Prezident İlham Əliyevin rəhbərliyi ilə, ölkə həyatının digər sahələri kimi, turizm sektoruna da ayırdığı diqqətin nəticəsidir. İnkişaf etmiş sivil dünyanı maddi abidələri, yeraltı və yerüstü sərvətləri ilə heyrətləndirən Azərbaycanda yay turizmi ilə yanaşı, qış turizm bazasının yaradılması mövsümilik anlayışını aradan qaldırmaqla davamlı turizmə nail olmağa şərait yaratdı. Şahdağ qış-yay turizm kompleksinin yaradılması Azərbaycanın qış turizminin inkişafında uğurlara gətirmiş oldu. Dünyadakı bu tipli komplekslərdən müasirliyi və universallığı ilə fərqlənən komplek Şahdağ qış-yay turizm kompleksi müasir tələblərə cavab verir. Azərbaycanda yol, nəqliyyat və digər infrastrukturun müasirləşdirilməsi turizmin inkişafına yol açıb.

Azərbaycanda tarixən müxtəlif xalqlar və dinlər arasında qarşılıqlı hörmətə və etimada əsaslanan səmimi dostluq və əməkdaşlıq münasibətləri də mövcuddur. Yüksək tolerantlıq ənənələrinin formalaşdığı dünyəvi, çoxmilləti və çoxkonfessiyalı dövlət kimi dünyada yüksək imicə malikdir. Ölkəmizə gələn hər bir kəs burada tolerantlıq mühitinin bir daha şahidinə çevrilirlər. Bu gün dünya ictimaiyyəti Azərbaycanın nümunəvi tolerantlıq, multikulturalizm modelini, dinlərarası dialoq mədəniyyətini qəbul edir və öyrənir. Azərbaycan dünyanın ən qədim xristian dövlətlərindən birinin yerləşdiyi məkan olub və xristian icması əsrlər boyunca Azərbaycan tarixinin formalaşmasında iştirak edib. Xristian və müsəlman icmaları ilə yanaşı yaşayan 30 minlik yəhudi icması isə Azərbaycanda əsrlərdir ki, yaşamaqdadır. Ölkəmizdə mövcud olan vəziyyət, reallıqlar dövlət siyasətinin məntiqi nəticəsidir. Azərbaycanda olan multikulturalizm məktəbi, tolerantlıq bu gün yeni mərhələdədir. Bu gün Azərbaycanda turizmin inkişafı respublikamıza xarici vətəndaşların cəlb edilməsi ilə yanaşı, həm də bölgələrdə əmək məşğulluğunun artması, yeni iş yerlərinin açılması baxımından da sərfəlidir. Bu isə dövlət siyasətinin prioritet məsələlərindən biridir.

**Nəzakət ƏLƏDDİNQIZI**



# “Azərbaycan gənci 44 günlük Vətən müharibəsində Zəfər salnaməsi yazıb”

“Gənclərimiz bu gün həyatımızın bütün sahələrində yaxından iştirak edir, ölkəmizin iqtisadi gücünün, hərbi qüdrətinin artması və siyasi nüfuzunun yüksəlməsi, milli-mənəvi dəyərlərə və ümumbəşəri ideallara əsaslanan vətəndaş cəmiyyətinin möhkəmləndirilməsi işində qüvvə və bacarığını əsirgəmir, zəngin mədəni irsimizin qorunub saxlanması və təbliği yolunda mühüm addımlar atırlar.”

Bu fikirlər Prezident İlham Əliyevin Azərbaycan Gəncləri Günü münasibətilə təbrikində ifadə olunub.

Təbrikdə deyilir: ”Azərbaycanda həyata keçirilən gənclər siyasəti yeni nəslin intellektual və innovativ potensialının reallaşmasına hərtərəfli imkan yaratmaqla yanaşı, eyni zamanda, onda dərin vətənpərvərlik ruhu formalaşdırmışdır. Azərbaycan gənci məhz qəlbindəki güclü Vətən sevgisi sayəsində döyüşlərin əsas ağırlığını qəhrəmancasına öz üzərinə götürərək xalqımızın qələbə əzmini dünyaya nümayiş etdirmiş və 44 günlük Vətən müharibəsində Zəfər salnaməsi yazmışdır”.

Dövlətimizin başçısı əmin olduğunu bildirib ki, Azərbaycan gəncliyi tariximizin bu yeni dövründə də ölkəmizin gələcək inkişafına layiqli töhfələr verəcək, yeni-yeni nailiyyətləri ilə bizi sevindirəcək.

”Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə gənclərimizə geniş və açıq müzakirə tribunası vermiş ilk forumun keçirildiyi günün ölkəmizdə 1997-ci ildən etibarən Gənclər Günü kimi qeyd olunması ənənəsi gənclər siyasəti dövlətimizin sosialyönümlü siyasətinin və insan kapitalının məqsədyönlü inkişafının əsas istiqamətlərindən olduğunu daha təsdiqləyir.”

Dövlətimizin başçısı qeyd edib ki, ötən müddətdə aparılan işlər gənclərin maraqlarının və ahəngdar inkişafının təmin olunması üçün lazımi şərait yaradılmasını sürətləndirib, onların təşkilatlanmasında və ictimai-siyasi fəallığının artmasında əhəmiyyətli rol oynayıb.

Təbrikdə vurğulanır ki, göstərilən diqqət və qayğı nəticəsində Azərbaycanda milli məfkurəyə sadiq və dünyanın qabaqcıl gəncliyi ilə inteqrasiya etməyə qadir olan bir nəsil yetişib.

# “Azərbaycan böyük həcmdə bərpaolunan enerji potensialına malikdir”

## Azərbaycan Prezidenti İlham Əliyev ABŞ Dövlət katibinin nümayəndəsini qəbul edib



**Azərbaycan Prezidenti İlham Əliyev fevralın 2-də ABŞ Dövlət katibinin enerji diplomatiyası üzrə müavininin müşaviri xanım Laura Loxmanı qəbul edib. Prezident İlham Əliyev Bakıda Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 9-cu iclasında iştirakına görə ABŞ nümayəndə heyətinə təşəkkürünü bildirib.**

Dövlətimizin başçısı ötənilki toplantıda qarşıya qoyulan vəzifələrin həyata keçirilməsi baxımından yaxşı nəticələrin əldə olunduğunu qeyd edib. Azərbaycan Prezidenti hazırda enerji diplomatiyamız qarşısında yeni vəzifə və tapşırıqların müəyyən edildiyini diqqətə çatdıraraq, Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 9-cu iclasında səmərəli müzakirələrin aparılacağına əminliyini ifadə edib.

Prezident İlham Əliyev Cənub Qaz Dəhlizinin qoyduğu bünövrənin bərpaolunan enerji sahəsində əməkdaşlıq üçün əlverişli imkanlar yaratdığını vurğulayıb. Azərbaycanın Xəzər dənizinin ölkəmizə aid sektorunda, eləcə də işğaldan azad edilmiş ərazilər daxil olmaqla quruda böyük həcmdə bərpaolunan enerji potensialına malik olduğunu qeyd edən Prezident İlham Əliyev bu xüsusda Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 1-ci iclasının və ”Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan Hökumətləri arasında yaşıl enerjinin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlığa dair Saziş”in icrası üzrə Rəhbər Komitənin ilk iclasının da keçirilməsinin əhəmiyyətini qeyd edib. Prezident İlham Əliyev hər iki tədbirin bir-birini tamamladığını deyib.

Xanım Laura Loxman Bakıda Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 9-cu iclasının əhəmiyyətini vurğuladı və Azərbaycanın Cənub Qaz Dəhlizi vasitəsilə Avropa ölkələrinin enerji təminatına əsaslı töhfələr verdiyini qeyd edib.

Qonaq Cənub Qaz Dəhlizinin yaratdığı təməllər əsasında bərpaolunan enerji, o cümlədən yaşıl hidrogen sahəsində yeni əməkdaşlıq perspektivlərinin meydana çıxdığını qeyd edib və bu layihələrin həyata keçirilməsində ölkəmizin vacib rol oynadığını bildirib. O, Azərbaycan, Gürcüstan, Macarıstan və Rumıniya hökumətləri arasında yaşıl enerji sahəsində strateji tərəfdaşlıq haqqında Sazişin imzalanması münasibətilə təbriklərini çatdırıb.

Görüşdə ABŞ-ın Cənub Qaz Dəhlizi layihəsinin həyata keçirilməsinə göstərdiyi davamlı dəstək yüksək qiymətləndirilib və ABŞ-la Azərbaycan arasında enerji sahəsində uğurlu əməkdaşlıqdan məmnunluq ifadə olunub. Söhbət zamanı nümayəndə heyəti ölkəmizin Tehrandakı səfirliyinə qarşı törədilmiş terror hadisəsi nəticəsində Azərbaycan vətəndaşının həlak olması ilə əlaqədar ABŞ-ın başsağlığını ifadə edib.

# Misirin beyin mərkəzi: “Azərbaycan Qoşulmama Hərəkatına ən uğurlu sədrlik edən ölkədir”

**Azərbaycan Respublikası üç ildən çoxdur Qoşulmama Hərəkatına sədrlik edir və bu mühüm təşkilata ən uğurlu rəhbərlik edən ölkədir. Hərəkatın təsisçilərindən biri olan Misir Ərəb Respublikası BMT, İƏT çərçivəsində olduğu kimi, həmin formatda da rəsmi Bakı ilə daha geniş əməkdaşlıq etmək əzmindədir. Bu siyasi iradə Misir Prezidenti Əbdülfəttah Əs-Sisinin Azərbaycan Prezidenti İlham Əliyev ilə görüşündə də aydın şəkildə ifadə olundu.**




AZƏRTAC xəbər verir ki, bu fikirlər Misirin Qahirə Siyasi və Media Dialoqu Araşdırmaları Mərkəzinin Azərbaycanla bağlı dərc etdiyi hesabatda yer alıb.

Yanvarın 28-də Bakıda Azərbaycan və Misirin dövlət başçılarının mətbuata bəyanatlarını təhlil edən Mərkəzin sədri Əhməd Tahir yazıb: ”Prezident İlham Əliyev BMT çərçivəsində islahatların aparılması üzrə çox aktual təkliflə çıxış edib. Həqiqətən, İslam Əməkdaşlıq Təşkilatı və Qoşulmama Hərəkatının BMT Təhlükəsizlik Şurasında daimi yerə malik olmaları qlobal və regional sülhə və təhlükəsizliyə mühüm töhfə olar. Misirin dövlət başçısı öz növbəsində Azərbaycanla Ərəb Dövlətləri Liqası arasında əlaqələrin inkişafını dəstəklədiyini bəyan etdi. Hər iki ölkənin xarici siyasəti beynəlxalq və regional təşkilatların prinsip və nizamnamələrinə sadiqlik, iştirak və səmərəlilik çərçivəsində məqsədlərinə çatmaq üçün çalışmaq üzərində qurulub. Bu prinsiplərdən ən mühümü suverenlikdə bərabərlik, dövlətlərin daxili işlərinə qarışmamaq, habelə Birləşmiş Millətlər Təşkilatının məqsədlərini həyata keçirmək üçün səy göstərməkdən ibarətdir. Xüsusən, beynəlxalq sülhün və təhlükəsizliyin qorunması, xalqlar arasında dostluq münasibətlərinin inkişaf etdirilməsi, iqtisadi və sosial sahələrdə beynəlxalq əməkdaşlığa nail olunması Misir və Azərbaycan üçün prioritet məsələlərdir. Bu, iki ölkənin nümayəndələrinin beynəlxalq forumlarda rəsmi çıxışlarında, terrorizmlə mübarizədə beynəlxalq əməkdaşlıqda göstərdikləri səylərdə aydın görünür. Sülhün bərqərar olmasında və cəmiyyətlərin qurulmasında mədəniyyətin əhəmiyyətinə inanan Azərbaycan Respublikası ”Sülh naminə mədəniyyət” adlı qlobal təşəbbüslə çıxış edib. 2022-ci il Azərbaycanda ”Şuşa İli” oldu, Qahirə isə İslam mədəniyyətinin paytaxtı seçildi. Bu kontekstdə Qahirə və Şuşa şəhərləri müxtəlif sivilizasiyaların və mədəniyyətlərin görüş yeridir. Qahirə şəhəri bəşər sivilizasiyasının bir çox lüğətini ehtiva edir, həmçinin yaradıcılıq, mədəni və bədii düşüncə mərkəzi hesab olunur. Digər tərəfdən, Şuşa şəhəri Azərbaycanın və Cənubi Qafqaz mədəniyyətinin tarixi rəmzidir. Məhz bu səbəbdən iki ölkə arasında mədəniyyət sahəsində əməkdaşlığa dair imzalanan sənəd geniş perspektivlər vəd edir”.

Hesabatda qeyd olunub ki, Azərbaycan və Misir müxtəlif sahələrdə geniş islahatlar həyata keçirən və böyük gələcəyə malik olan ölkələrdir. Eyni zamanda, Misir Süveyş kanalı vasitəsilə dünya ticari əlaqələrini həyata keçirdiyi kimi, Azərbaycan da böyük coğrafi əhəmiyyəti - dəniz limanı, enerji layihələri və nəqliyyat dəhlizləri sayəsində yalnız regional deyil, həm də qlobal miqyasda mühüm ölkə statusunu qazanır. Bu baxımdan iki dost ölkənin iqtisadi əməkdaşlığının böyük potensialı mövcuddur.

”Ötən il 30 illiyini qeyd etdiyimiz Misir-Azərbaycan əlaqələri növbəti illərdə daha da möhkəmlənəcək, əməkdaşlığımız iki dost ölkənin xalqlarının rifahı naminə genişlənəcəkdir. Prezidentlər Əbdülfəttah Əs-Sisi və İlham Əliyevin siyasi iradəsi bunun ən mühüm təminatıdır”, - deyə hesabatın sonunda vurğulanıb.

# SOSİAL DÖVLƏTİN AZƏRBAYCAN MODELİ

## İLHAM ƏLİYEV: "Azərbaycan sosial dövlətdir və biz bunu sözlə yox, əməlimizlə təsdiqləyirik"



***Bəli, Prezident İlham Əliyevin yürütdüyü siyasətin əsas başlıca hədəfi insanların sosial rifahının yaxşılaşdırılmasıdır. Ötən il bu istiqamətdə yürdülən siyasət nəticəsində əhatəli sosial müdafiə tədbirlərini həyata keçirib və əhalinin sosial rifah halı daha da yaxşılaşıb.***

Prezident İlham Əlyevin yanvarın 5-də imzaladığı "Əhalinin sosial rifahının yaxşılaşdırılması sahəsində əlavə tədbirlər haqqında" imzaladığı müvafiq Sərəncamla əhalinin sosial müdafiəsinin gücləndirilməsinə dair əlavə tədbirlərin icrası nəzərdə tutulub. Belə ki, minimum əmək haqqının 300 manatdan 345 manata qaldırılması, minimum pensiya məbləğinin 280 manata çatdırılması, müavinət və təqaüdlərin artırılması bir daha təsdiqləyir ki, Azərbaycanın sosial dövlət modeli nümunəvi və uğurludur.

### BİZİM SİYASƏTİN MƏRKƏZİNDƏ AZƏRBAYCAN XALQI DAYANIR, ONUN SOSİAL RİFAHININ GÜNDƏN-GÜNƏ YAXŞILAŞDIRILMASI DAYANIR

Azərbaycan Prezidenti İlham Əliyevin dəfələrlə qeyd etdiyi kimi bizim siyasətin mərkəzində Azərbaycan xalqı dayanır, onun sosial rifahının gündən-günə yaxşılaşdırılması dayanır. Sosial islahatlar bütün dövrlərdə və bütün ölkələrdə ən çətin, ağır gedişli və daha çox məsuliyyət tələb edən islahatlardır. Prezident İlham Əlyevin yanvarın 5-də imzaladığı "Əhalinin sosial rifahının yaxşılaşdırılması sahəsində əlavə tədbirlər haqqında" sərəncam əhalinin, xüsusilə, həssas qruplardan olan vətəndaşların sosial rifahının qorunmasını təmin edir. Sərəncam beynəlxalq bazarlardakı proseslərin ölkədaxili qiymətlərə sirayət etməsinin ölkə əhalisinə, xüsusilə, aztəminatlı təbəqəyə və həssas qruplara mənfi fəsadlarının yumşaldılması və əhalinin sosial müdafiəsinin gücləndirilməsi məqsədi daşıyır. Beləliklə, aztəminatlı əhali təbəqəsi üçün narahatlıq yaradan kommunal tariflərin dəyişdirilməsi yeni sərəncamla onların gəlirlərinin artırılması istiqamətində atılan addımlarla uzlaşdırılır. Sərəncama əsasən Azərbaycanda minimum aylıq əməkhaqqının məbləği 2023-cü il yanvarın 1-dən 345 manat müəyyən edilib.

Həmçinin, bütün dünyanı ağuşuna alan COVID - 19 pandemiyasının bütün ölkələrdə olduğu kimi, Azərbaycanda da yaratdığı sarsıntıları geridə qoyaraq, 2021-ci ildə ölkəmiz inamlı şəkildə iqtisadi bərpa yoluna qayıtmışdır. Bu, dünya miqyasında pandemiyaya qarşı peyvəndlərin ərsəyə gətirilməsi, ölkəmizdə isə insanlarımızın bu xəstəlikdən qorunması istiqamətində dövlət tərəfindən əhatəli və effektiv sosial-iqtisadi tədbirlərin, xüsusilə genişmiqyaslı peyvəndləmə kampaniyasının keçirilməsi, həmçinin 2020-ci ildə əhalinin sosial baxımdan həssas qruplarına maliyyə və sosial dəstək göstərilməsi, eləcə də pandemiyadan zərər çəkmiş iqtisadi sahələrdə fəaliyyət göstərən sahibkarlara, qurumlara vergi və bank-kredit güzəştlərinin verilməsi sayəsində mümkün olmuşdur. Bununla yanaşı, qeyd olunmalıdır ki, dünya iqtisadiyyatında bərpa meyillərinin güclənməsi müşahidə olunmaqdadır. İmzalanmış yeni sərəncam məhz bu məqsədi daşıyır ki, əmtəələrdəki qiymət artımı vətəndaşların büdcələrinə uyğun şəkildə olsun. Ona görə də sərəncamda göstərilir ki, beynəlxalq bazarlardakı proseslərin ölkədaxili qiymətlərə sirayət etməsinin ölkə əhalisinə, xüsusilə həssas əhali qruplarına mənfi fəsadlarını yumşaltmaq və əhalinin sosial müdafiəsini gücləndirmək məqsədilə Nazirlər Kabinetinə əməkhaqlarının, pensiya və sosial müavinətlərin, təqaüdlərin və digər sosial ödənişlərin məbləğlərinin artırılması ilə bağlı 2022-ci ilin dövlət büdcəsi layihəsində müvafiq tədbirlərin əks etdirilməsi üçün təkliflər hazırlanması və dövlət başçısına təqdim edilməsi tapşırılır. ƏƏSMN-dən aldığımız məlumata görə, həmin təkliflərin hazırlanmasına artıq başlanıb və qısa müddət ərzində bu təkliflər yekunlaşdırılaraq büdcə layihəsinə daxil edilməsi üçün Nazirlər Kabinetinə təqdim ediləcək.Sosial ödənişlərdə növbəti artımlar edilməsini nəzərdə tutan bu sərəncam vətəndaş rifahının təminatı və həssas qrupların sosial müdafiəsinin Prezident İlham Əliyevin siyasətində başlıca istiqamət olduğunu bir daha təzahür etdirir. Bu sahədə islahatlar xüsusilə, son illərdə inqilabi xarakter alıb. Sosial islahat paketləri nəticəsində müavinət və təqaüdlərin, pensiya və əməkhaqlarının ciddi şəkildə artımı təmin edilib, yeni sosial təminat növləri təsis olunub. Bir sözlə, Azərbaycan Prezidentin imzaladığı sərəncam sübut edir ki, Azərbaycan dövləti öz vətəndaşlarının sosial rifahını qorumaq üçün zəruri addımlarını davam etdirməkdə qərarlıdır. Dövlətimizin sosial siyasəti ardıcıl xarakter daşımaqla bilavasitə əhaliyə yönəlik hərtərəfli sosial dəstəyi təmin edir.

### 700 MİN İŞÇİNİ ƏHATƏ EDƏCƏK MİNİMUM AYLIQ ƏMƏKHAQQI ARTIMI ÜÇÜN BÜDCƏDƏN 450 MİLYON MANAT AYRILMASI NƏZƏRDƏ TUTULUB

Onu da qeyd edək ki, dövlət başçımızın son sərəncamı ilə Azərbaycanda 700 min işçini əhatə edəcək minimum aylıq əməkhaqqı artımı üçün büdcədən 450 milyon manat ayrılması nəzərdə tutulub. Sərəncam əsasında həyata keçiriləcək minimum əmək pensiyalarının artımı 100 minədək pensiyaçını əhatə edəcək.Ölkənin ahıl vətəndaşları üçün daha bir güzəşt bu il yanvarın 1-dən fərdi hesabında pensiya kapitalı olanlara 25 il staj hədiyyə edilməsi müddətinin daha üç il uzadılmasıdır. Artıq bununla bağlı "Əmək pensiyaları haqqında" qanuna müvafiq dəyişiklik edilib.Belə ki, "Əmək pensiyaları haqqında" qanunda 2019-cu ilin əvvəlindən tətbiq olunan dəyişikliyə əsasən, fərdi hesabında 01.01.2006-cı ildən 01.07.2018-ci ilədək dövr üzrə hər hansı məbləğdə pensiya kapitalı olan pensiya yaşına çatan şəxsə avtomatik 25 il sosial sığorta stajı (pensiya hüququ qazanmaq üçün də minimum staj tələbi 25 ildir) hədiyyə edilir. Nəticədə o, hətta heç bir stajı olmadıqda belə, pensiya hüququ qazanır.

Bir sözlə, əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan və Prezident İlham Əliyev tərəfindən davam etdirilən uğurlu iqtisadi siyasət son nəticədə təhsil və səhiyyə də daxil olmaqla, ümumən sosial sahədə geniş miqyaslı işlərin görülməsinə zəmin yaradıb. Prezident İlham Əliyevin sosial siyasətinin əsasını səbəb və nəticə amili, ölçülü-biçili, hesablanmış proqramlarla maliyyələşmə, regional idarəetmə, mükəmməl iqtisadi siyasəti və infrastrukturun modernləşdirilməsi faktorları təşkil edir. Sosial siyasətin Azərbaycan modelində sosial xidmətlərin əsas istehsalçısı kimi dövlət, xərclərin bölüşdürülməsində isə dövlət büdcəsi mühüm rol oynayır, səbəblər aradan qaldırılır, nəticədə problemlər azalır, deinstitutlaşma siyasəti qanunvericilik səviyyəsində ardıcıl həyata keçirilir, ölkədə əlil və şəhid ailələrinin, qaçqın və məcburi köçkünlərin, veteranların, ahılların sosial şəraitinin yaxşılaşdırılması üçün onlara sistemli yardımlar, mənzillər, minik maşınları verilir, işsizliyin aradan qaldırılması üçün kiçik və orta sahibkarlıq inkişaf etdirilir, yoxsulluğun sıfıra endirilməsi istiqamətində daim iş aparılır, proqramlarla və regional idarəetməyə üstünlük verilir, məssenatlıq və xeyriyyəçilik fəaliyyətinin genişləndirilməsi üçün müvafiq şərait yaradılır.

### İKİNCİ DÜNYA MÜHARİBƏSİ İŞTİRAKÇILARINA PREZİDENT TƏQAÜDÜ 330 MANATA ÇATDIRILIB

Prezident İlham Əliyev 1941-1945-ci illər Böyük Vətən müharibəsi iştirakçılarına, İkinci Dünya müharibəsi dövründə Leninqrad şəhərinin mühasirəsi zamanı şəhərin müəssisələrində, idarə və təşkilatlarında işləmiş və "Leninqradın müdafiəsinə görə" medalı, "Leninqrad mühasirəsində yaşayan" döş nişanı ilə təltif edilmiş şəxslərə verilən Azərbaycan Respublikası Prezidentinin təqaüdünün məbləğinin artırılması və "1941-1945-ci illər Böyük Vətən müharibəsi iştirakçılarına, İkinci Dünya müharibəsi dövründə Leninqrad şəhərinin mühasirəsi zamanı şəhərin müəssisələrində, idarə və təşkilatlarında işləmiş və "Leninqradın müdafiəsinə görə" medalı, "Leninqrad mühasirəsində yaşayan" döş nişanı ilə təltif edilmiş şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 2 iyul tarixli 2320 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə sərəncam imzalayıb.1941-1945-ci illər Böyük Vətən müharibəsi iştirakçılarına, İkinci Dünya müharibəsi dövründə Leninqrad şəhərinin mühasirəsi zamanı şəhərin müəssisələrində, idarə və təşkilatlarında işləmiş və "Leninqradın müdafiəsinə görə" medalı, "Leninqrad mühasirəsində yaşayan" döş nişanı ilə təltif edilmiş şəxslərə verilən Azərbaycan Respublikası Prezidentinin təqaüdünün aylıq məbləği 2023-cü il yanvarın 1-dən 330 manat müəyyən edilsin. Eyni zamanda şəhid ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdünün aylıq məbləği 2023-cü il yanvarın 1-dən 600 (altı yüz) manat müəyyən edilib.

### AZƏRBAYCAN SOSİAL DÖVLƏTDİR VƏ BİZ BUNU SÖZLƏ YOX, ƏMƏLİMİZLƏ TƏSDİQLƏYİRİK

Azərbaycan Prezidenti İlham Əliyev bunu sözdə yox, əməldə göstərib. Yerli televiziya kanallarına müsahibəsində Prezident İlham Əliyev sosial sahənin çoxşaxəli olduğunu qeyd edərək deyib ki, buraya özünüməşğulluq proqramını da əlavə etmək olar: "Bir neçə il ərzində belə bir təşəbbüs irəli sürüldü. Çox böyük maraq doğurdu və bu gün 60 min ailə özünüməşğulluq proqramına cəlb edilib. Hətta biz beynəlxalq maliyyə institutlarını da bu proqrama cəlb etmişik. Bu, həm sosial, həm iqtisadi, həm iş yerlərini, yəni, bütün bu sahələri əhatə edən bir sahədir. Ona görə bu il də istisna olmayacaq. Çünki bir daha demək istəyirəm, Azərbaycan sosial dövlətdir və biz bunu sözlə yox, əməlimizlə təsdiqləyirik. İmkan daxilində bu il də bu proqramlar icra ediləcək". İkinci Qarabağ müharibəsində əlil olmuş 379 hərbçi ən müasir protezlərlə təmin edildiyini söyləyən dövlət başçısı söyləyib ki, cəmi iki il keçməsinə baxmayaraq, İkinci Qarabağ müharibəsinə aid olan bu proqram tam yerinə yetirilib. Yəni, biz öz sağlamlığını itirmiş soydaşlarımıza maksimum dərəcədə kömək göstərməyə çalışırıq. Əlbəttə ki, bu, yüksək texnologiyalı protezlər olduğu üçün onlar vaxtaşırı dəyişdirilməlidir. Bütün bu proqramlar da gündəlikdədir.

Bəli, sözü ilə əməlləri üst-üstə düşən Azərbaycan Prezidenti İlham Əliyev iqtisadi və sosial sahə həmişə paralel getməlidir: "Ona görə də, hələlik, limitsiz xarici kreditlərin cəlb edilməsinə ehtiyac yoxdur. O ölkələrdə ki, ancaq iqtisadi sahəyə diqqət verilir və sosial sahə kənarda qalır, orada insanlar iqtisadi islahatlardan çox böyük əziyyət çəkirlər. Bizim isə məqsədimiz ölkəni gücləndirmək və hər bir vətəndaşın həyatını daha da yaxşı etməkdir".

Dövlət başçısı müsahibəsində sosial rifah sahəsində atılan praktiki addımlardan danışarkən deyib ki, minimum əməkhaqqının 15 faiz artması inflyasiyanın fəsadlarının yumşaldılması hesabınadır: "Bu, bizi qane edir? Əlbəttə ki, yox. Amma biz imkan daxilində öz addımlarımızı atırıq. Çünki bir daha demək istəyirəm, bizim əsas xərclər istiqaməti Qarabağ və Şərqi Zəngəzur bərpa etmək və ordu potensialımızı gücləndirməkdir. Bu iki əsas prioritet bizim üçün uzun illər prioritet kimi qalacaq".Beləliklə, bütün bu uğurlu nəticələr, onu bir daha göstərir ki, ölkə əhalisinin rifahının yaxşılaşdırılması və sosial müdafiəsinin gücləndirilməsi istiqamətində məqsədyönlü kursun gələcək illərdə də davam etdirilməsi qarşıda duran prioritet vəzifələrdən olacaqdır. Və Azərbaycan Prezidentinin imzaladığı sərəncam sübut edir ki, Azərbaycan dövləti öz vətəndaşlarının sosial rifahını qorumaq üçün zəruri addımlarını davam etdirməkdə qərarlıdır. Və 2023-cü il də sosial islahatların həyata keçirildiyi növbəti illərdən biri olacaqdır.

***RƏFİQƏ KAMALQIZI***

# Azərbaycan və Misir əməkdaşlığında vahid mövqe

## İlham Əliyev: "Bizim ikitərəfli əlaqələrimizin uğurlu inkişafı xalqlarımız və dövlətlərimiz üçün çox faydalı olacaq"





### "Beynəlxalq təşkilatlardakı birgə fəaliyyətimizi gücləndirəcəyik və əməkdaşlığımızı dərinləşdirəcəyik"

Dinamik inkişafına görə bir çox dövlətləri üstələyən Azərbaycanda bu gün aparılan məqsədyönlü daxili və xarici siyasətin məntiqi olaraq ölkəmiz dünya dövlətləri arasında yerini daha da möhkəmləndirir. Dünyanın inkişaf etmiş dövlətləri ilə əməkdaşlığın daha da genişləndirilməsi xarici siyasətin əsas prioritetlərini təşkil edir. Ölkəmizin bir çox dünya dövlətləri ilə yanaşı, Misir Ərəb Respublikası ilə də qarşılıqlı əlaqələri dostluq və əməkdaşlığa söykənir. Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra Misir ölkəmizin müstəqilliyini tanıyıb və 1993-cü ildə qarşılıqlı diplomatik əlaqələrin yaradılması haqqında protokola əsasən Misirin Bakıda, 1994-cü ilin yanvarında isə Azərbaycanın Qahirədə səfirlikləri açılıb. Ümummilli Lider Heydər Əliyev 1994-cü ildə BMT-nin Əhali və İnkişaf üzrə Beynəlxalq Konfransında iştirak etmək üçün Qahirədə işgüzar səfərdə olarkən Misir Prezidenti ilə görüşüb və bu görüşdə Azərbaycan-Misir münasibətlərinin yeni perspektivlərinin müəyyənləşdirilməsi istiqamətində çox mühüm məsələlər müzakirə edilib. Hələ 2002-ci ilin oktyabrda Azərbaycan Respublikası ilə Misir Ərəb Respublikası arasında Hökumətlərarası iqtisadi, texniki və elmi əməkdaşlıq üzrə Müştərək Komissiya yaradılıb ki, bunun da fəaliyyəti nəticəsində əlaqələrin inkişafı istiqamətində mühüm addımlar atılıb. Ulu Öndərin siyasi kursunun davamçısı Azərbaycan Prezidenti İlham Əliyevin 2007-ci ildə Misirə rəsmi səfəri və iki ölkə arasında siyasi, iqtisadi və mədəni əlaqələrin genişlənməsinə səbəb olan sənədlər imzalanıb. Azərbaycanın Abşeron rayonu və Misir Ərəb Respublikasının Qalubiyyə vilayəti arasında dostluq və əməkdaşlığa dair anlaşma memorandumu da həmin sənədlərdəndir. Anlaşma protokolundan sonra Misirdən bir qrup nümayəndə heyəti Abşeron rayonunda olmuşdur. Memorandumun şərtlərindən biri də Misirdə Azərbaycan parkının yaradılması, orada Ulu Öndər Heydər Əliyevin abidə kompleksinin ucaldılması və həmin küçəyə ölkəmizin adının verilməsi idi ki, bunlar tezliklə yerinə yetirildi. Eyni zamanda, Abşeron rayonunda Qalubiyyə küçəsi salındı, park yaradıldı və orada Misir Prezidenti Hüsni Mübarəkin heykəli qoyuldu. Misirdə Azərbaycan və Azərbaycanda Misir mədəniyyət günlərinin keçirilməsi əlaqələrin davamlığına söykənir.

### "BEYNƏLXALQ TƏŞKİLATLARDAKI BİRGƏ FƏALİYYƏTİMİZİ GÜCLƏNDİRƏCƏYİK VƏ ƏMƏKDAŞLIĞIMIZI DƏRİNLƏŞDİRƏCƏYİK"

Misir Ərəb Respublikasının Prezidenti Əbdülfəttah Əs-Sisinin Azərbaycan Respublikasına səfəri münasibətlərin yüksələn xətlə inkişafının göstəricisidir. Dövlət başçılarının görüşü zamanı bir çox məsələlər müzakirə olunub. "Görüşün çox gözəl nəticələri olmuşdur" - deyən Cənab Prezident bildirib ki, biznes dairələrinin birgə fəaliyyəti bizim əlaqələrimizi daha da gücləndirəcək: "Biz gələcək əməkdaşlıq sahələrini də müəyyən etdik. Əminəm ki, həm qarşılıqlı sərmayə qoyuluşu, həm ticarət dövriyyəsinin artırılması yaxın gələcəkdə mümkün olacaq. Əlbəttə ki, siyasi əlaqələrimizin gücləndirilməsi məsələləri də diqqətdən yayınmadı. Beynəlxalq təşkilatlardakı birgə fəaliyyətimizi gücləndirəcəyik və əməkdaşlığımızı dərinləşdirəcəyik. Əminəm ki, Prezident cənab Sisinin Azərbaycana səfəri ölkələrimizin gələcək uğurla inkişafına çox böyük töhfə verəcəkdir". Əlbəttə ki, bütün sahələrdə özünü büruzə verən qarşılıqlı anlayış, istər siyasi, istər iqtisadi, istər digər sahələrdə əməkdaşlığın inkişafı istiqamətində hər iki tərəfin siyasi iradəsinin mövcudluğu bu əlaqələri tez bir zamanda daha da gücləndirəcəkdir. Bildiyimiz kimi, ötən il keçirilmiş Azərbaycan-Misir Hökumətlərarası Müştərək Komissiyanın iclasında da uğurlu nəticələr əldə olunub.

### "BEYNƏLXALQ TERRORÇULUQ BÜTÜN DÜNYA ÜÇÜN BÖYÜK TƏHDİDDİR"

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mətbuata bəyanatla çıxışı zamanı bildirib ki, biz bu gün həm təkbətək görüşdə, həm də nümayəndə heyətlərinin iştirakı ilə keçirilən görüşdə bir çox məsələləri müzakirə etdik və gələcək əməkdaşlıq haqqında vahid mövqeyə gəldik - bu əməkdaşlıq dərinləşdirilməlidir və genişləndirilməlidir. Cənab Prezident Misir Prezidentinin ölkəmizə səfərini ölkələrarası əlaqələrinin inkişafına böyük töhfə verəcəyini qeyd edib: "Biz bundan sonra da beynəlxalq təşkilatlarda birgə fəaliyyət göstərəcəyik, bir-birimizi bundan sonra da dəstəkləyəcəyik, necə ki, bu günə qədər iştirak etdiyimiz beynəlxalq təşkilatlarda - istər BMT olsun, Qoşulmama Hərəkatı olsun, İslam Əməkdaşlıq Təşkilatı olsun, bu təşkilatlar çərçivəsində qarşılıqlı dəstək göstəririk. BMT ilə bağlı məsələlər artıq dünyada uzun illər müzakirə edilir, BMT-dəki islahatlar haqqında fikir mübadiləsi aparılır. Mən çıxışlarımın birində bildirmişdim ki, bu islahatlara böyük ehtiyac var. Hesab edirəm ki, Təhlükəsizlik Şurasının tərkibi genişləndirilməlidir. Bir daimi yer mütləq İslam Əməkdaşlıq Təşkilatının üzvünə verilməlidir və İslam Əməkdaşlıq Təşkilatı özü məsləhətləşmələr əsasında bu namizədliyi irəli sürməlidir. Digər daimi yer Qoşulmama Hərəkatına verilməlidir və Qoşulmama Hərəkatına sədrlik edən ölkə bu yerə sahib olmalıdır. Hesab edirəm ki, bu, ədalətli olar. Çünki İkinci Dünya müharibəsindən artıq 80 ilə yaxın vaxt keçir, dünya dəyişib və bu dəyişikliklər sürətlə davam edir. Ona görə, hesab edirəm ki, bu islahatlar daha ədalətli və təhlükəsiz dünyanın yaradılmasına xidmət göstərəcəkdir".

Azərbaycan və Misir arasında regional təhlükəsizlik məsələlərinə diqqət ayrılaraq gələcəkdə təhlükəsizlik sahəsində əməkdaşlığı dərinləşdirmək üçün fikir mübadiləsi aparılıb. Beynəlxalq terrorçuluğa qarşı birgə mübarizəni gücləndirmək qərarına gəlinib. Müasir dünyamızda buna böyük ehtiyac var: "Çünki beynəlxalq terrorçuluq bütün dünya üçün böyük təhdiddir və bu təhlükəyə qarşı ancaq səylərin birləşdirilməsi nəticəsində uğurla mübarizə aparmaq mümkün olacaqdır".

Azərbaycan 44 günlük Vətən müharibəsində qazandığı Zəfərdən sonra yeni reallıqlar yaranıb. "Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi başa çatdı. Artıq bu münaqişə həll olundu, Qarabağ Azərbaycanın ayrılmaz hissəsi olaraq qalır və əbədi qalacaqdır", - deyən dövlət başçımız bizim işğala artıq son qoyaraq, sülhə daha da yaxınlaşdığımızı qeyd edib. Amma hələ ki, sülh əldə edilməyib və Azərbaycanla Ermənistan arasında imzalanacaq sülh müqaviləsi sülhün əldə edilməsinə gətirib çıxaracaq: "Biz bəlli olan təklifləri irəli sürmüşük və bütün əzab-əziyyətlərə, bütün dağıntılara baxmayaraq, yenə də hesab edirik ki, sülh müqaviləsi mütləq imzalanmalıdır. Əks təqdirdə, bizim bölgəmizdə təhlükələr daha da arta bilər".

### "SABİTLİK OLMADAN HEÇ BİR ÖLKƏ UĞURLA İNKİŞAF EDƏ BİLMƏZ"

Cənab Prezident çıxışında Azərbaycanın 30 ilə yaxın davam edən işğala hərbi-siyasi yollarla son qoyduğunu və ərazi bütövlüyünü bərpa etdiyini, BMT-nin dörd qətnaməsini özünün icra etdiyini diqqətə çatdırıb: "Halbuki bu qətnamələri BMT özü icra etməli idi. BMT Təhlükəsizlik Şurasının islahatlarının labüdlüyü məhz buna əsaslanır. Çünki biz 30 ilə yaxın bu qətnamələrin icrasını gözləmişik, amma bunu görməmişik. Yəni, burada həm ikili standartlar hökm sürürdü, həm ayrı-seçkilik hökm sürürdü. Biz bu müharibəni apararaq işğala son qoyduq və ədaləti bərpa etdik. İndi isə azad edilmiş torpaqlarda qurub-yaradırıq və bütün dağıntıları görərkən bir daha görürük ki, biz Azərbaycanı və bölgəni hansı bəladan qurtardıq".

Tərəflər arasında danışıqlar çox gözəl və müsbət mühitdə keçirilib. İqtisadi, ticari və mədəni sahələrdə əlaqələrimizi daha da inkişaf etdirmək baxımından potensial çoxdur. Danışıqlar zamanı iki ölkə arasında ticarət dövriyyəsinin artırılmasına dair razılıq əldə olunub. Əlbəttə ki, bütün bunlar mövcud siyasi iradənin fonunda əlçatandır və inkişaf etdirilməsi mümkündür. Həmçinin Hökumətlərarası Müştərək Komissiyanın altıncı iclasında əldə olunmuş razılaşmaların həyata keçirilməsi ilə bağlı və komissiyanın növbəti iclasının gündəliyinə salınacaq məsələlər müzakirə olunub. "Ötən il Azərbaycanda Hökumətlərarası Müştərək Komissiyanın iclası keçirilmişdi və komissiyanın növbəti iclası ərəfəsində bu gün hörmətli qonağımla əldə edilmiş razılaşmaları biz həyata keçirməliyik ki, növbəti iclasda artıq konkret addımlar atılsın. Sahələr də müəyyən edilmişdir - əczaçılıq, sənaye sahələri, alüminium sənayesi, energetika, neft sənayesi, o cümlədən bərpaolunan energetika sahəsi. Burada da böyük imkanlar var", - deyə Prezident bildirib. Görüşlərdə Misirin xarici investorlar qarşısında mövcud maneələrin aradan qaldırılması, onlar üçün şəraitin yaradılması və hüquqi prosedurların daha da asanlaşdırılması istiqamətində görülən tədbirlər ətrafında fikir mübadiləsi aparılıb.

"Misir bu gün yerləşdiyi bölgədə sabitləşdirici rol oynayır. Biz bunu çox təqdir edirik və əldə olunmuş nailiyyətlərlə öz dostlarımızı səmimiyyətlə təbrik edirik", - deyən Prezident bildirib ki, bizim ikitərəfli əlaqələrimizin uğurlu inkişafı xalqlarımız və dövlətlərimiz üçün çox faydalı olacaq: "Eyni zamanda, yerləşdiyimiz bölgələrə də əlavə sabitlik gətirəcəkdir. Çünki sabitlik olmadan heç bir ölkə uğurla inkişaf edə bilməz".

*Zümrüd ƏLƏDDİNQIZI*

# “Mətbuatımızın inkişafı Ulu Öndərin adı ilə bağlıdır”



“Ümummilli Lider Heydər Əliyevi hər zaman ”mətbuatın dostu” kimi yad edirik. Ulu Öndərin Azərbaycanın müstəqil dövlətçilik tarixində açdığı yeni səhifə milli mətbuatımız üçün də yeni hədəflər və imkanlar demək idi. Məhz Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə hazırlanan Konstitusiyamıza söz və mətbuat, ifadə azadlığı anlayışları daxil edildi”. Bunu ”Səs” qəzetinə açıqlamasında ”Həftə içi” qəzetinin Baş redaktoru Sevinc Seyidova deyib.

Onun sözlərinə görə, 1998-ci ildə imzalanan ”Azərbaycan Respublikasında söz, fikir və məlumat azadlığının təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında” Fərman mətbuatımızın inkişafında yeni mərhələ sayılır: ”Məhz bu Fərman sayəsində senzura ləğv edildi. Mediaya geniş imkanlar və azadlıqlar verildi. 1999-cu ilin sonunda qəbul olunan ”Kütləvi informasiya vasitələri haqqında” yeni qanun isə mətbuatda demokratikləşmə istiqamətində aparılan islahatların yeni dalğasını başlatdı. Yeni mətbu orqanların yaradılması və qeydiyyata alınması istiqamətində bürokratik əngəllər aradan qaldırıldı. Ulu Öndərin 2000-ci ildə imzaladığı sərəncamla ”2000-2001-ci illərdə kütləvi informasiya vasitələrinin maddi-texniki şəraitinin yaxşılaşdırılması üzrə tədbirlər Proqamı” təsdiq olundu, Mətbuat və İnformasiya Nazirliyi ləğv edildi, Milli Mətbuat, Teleradio və İnternet Şurası yaradıldı. Ümummilli Lider Heydər Əliyevin mətbuatın inkişafına dəstəyini ehtiva edən ən yadda qalan addımlarından biri də, həmin dövrdə böhran keçirən çap mediasının ”Azərbaycan” nəşriyyatına olan borclarının dondurulması, sonradan isə ləğv edilməsi idi. Bu addım çap mətbuatının sonrakı inkişafında xüsusi önəm daşıyırdı”.

S.Seyidova onu da bildirdi ki, Ümummilli Lider mütəmadi olaraq baş redaktorlarla görüşlər keçirir, mətbuatı maraqlandıran, narahat edən məqamları diqqətlə dinləyir, onların həlli üçün xüsusi təşəbbüs göstərirdi: ”Ulu Öndər Heydər Əliyevin Azərbaycan jurnalistikasına, mediasına verdiyi qiymət, göstərdiyi diqqət mətbuatın nüfuzunun artmasına zəmin yaratdı. Hazırda bu siyasət Prezident İlham Əliyev tərəfindən də davam etdirilir. Azərbaycan dövlətinin milli mətbuatın inkişafı istiqamətində dəstəyini hər zaman hiss edirik”.

***Gülyana***

# 63% fransız Makronu pis prezident kimi görür



Fransa prezidenti Emmanuel Makronun və baş nazir Elizabet Bornun reytinqləri ilə bağlı aparılan yeni sorğuya görə, onların populyarlıqları son 1,5 ay ərzində beş bənd düşərək 36%-31% arasında dəyişir. SİA-ya daxil olan məlumata görə, bu barədə ”Odox” institutunun keçirdiyi sorğusunda bildirilir. Belə ki, fransız respondentlərinin 3-dən 2-si - 63%-i Makronu ”respublikanın pis prezidenti” hesab edir. Respondentlərin 66%-i isə Bornun ”yaxşı baş nazir olmadığı” qənaətindədirlər.

İnstitutun məlumatına görə, bu, Bornun ötən ilin mayında vəzifəyə gəldiyi vaxtından indiyə kimi olan ən pis reytinq populyarlığı göstəricisidir. Fransanın ən populyar siyasətçisi Normandiyanın liman şəhəri olan Qavrın meri Eduard Filippdir. O, fransızların 36%-nin rəğbətini qazanıb. Qeyd olunur ki, Filipp 2021-ci ildə təsis edilmiş sağ mərkəzçi ”Horizontlar” partiyasının sədridir. Bu partiya 2022-ci ildə keçirilmiş parlament seçkilərində seçiki alyansının bir hissəsi olub və həmin alyansda Makronun ”Marş üzərində Respublika” partiyası da iştirak edib.

Xatırladaq ki, Makron hakimiyyətinin pensiya yaşının artırılması ilə bağlı qərarından sonra ölkədə sosial narazılıqlar yenidən artmağa başlayıb və ölkədə iqtisadi maraqları təmin olunmayan fransız vətəndaşların ”Sarı jiletlilər” adı altında tanınan kütləvi etiraz aksiyaları da artıq bir neçə ildir ki, davam edir.

***Rövşən RƏSULOV***



# Gənclik, sən nə qədər gözəlsən...

**Gənclik İnsan ömrünün ən gözəl, əvəzolunmaz çağı. Əgər bilsək ki, gənclik əldən gedəndən sonra arxasınca düşüb axtaracaq, arayacaq, yenidən həyatımıza qaytarmağa çalışacağıq, lap əvvəldən onun qədir-qiymətini bilərik. Çünki gəncliyin nə qədər gözəl olduğunu onu yaşayarkən deyil, itirəndən sonra tam mənası ilə dərk edirik. O vaxt dərk edirik ki, saçlarımız yavaş-yavaş ağarmağa başlayır. O ağlar bizi gənclikdən çox uzaqlara aparır. Nə qədər gözəl, təravətli görünməyə çalışsaq da, saçların arasından boylanan ağlar artıq başqa bir yolçuluğa çıxdığından xəbər verir.**

Gəncliyin gözəlliyini, əvəzolunmazlığını o zaman dərk edirik ki, güzgü qarşısında gözlərimizin ətrafında kiçik qırışları görürük. O şüşə kimi dümdüz, hətta gülümsəyəndə belə heç bir qırış yaranmayan üzümüzdəki cizgilər bizə yeni bir yolun başlanğıcında oldumuzu söyləyir.

Gəncliyin əlimizdən uçmaqda olduğunu o zaman anlayırıq ki, ümumilikdə əvvəlki görkəmimizdən əsər-əlamət qalmır. Bu zaman nə etsək də gənclik dövrümüzün bir anını belə geri gətirə bilmirik. Üzümüzdəki qırışlar get-gedə daha da dərinləşir. Saçlarımız gündən-günə daha çox ağarmağa başlayır. Bəzənib-düzənəndə, geyinib-kecinəndə atrıq gənclikdə göründüyümüz qədər şux və gözəl görünmürük.

İllər gəncliyimizdən ötür İllər gəncliyimizi bizdən qoparır. İllər həm də gözəlliyimizi və yaraşığımızı bizdən alır. Lakin fərqində olmuruq, düşünürük ki, elə həmişə belə görünəcəyik. Bu gözəlliyi, yaraşığı kim əlimizdən ala bilər ki? Bu, bizə məxsusdur. Bunu Yaradan verib bizə, bizim də olacaqdır. Lakin illər axı bunu demir, illər başqa sözlər söyləyir və söylədiklərinin hər birini həyat bizə yaşadır.

Elə ki, gəncliyin son akkordlarını dinləyirik, bundan sonra başlayırıq yavaş-yavaş yaşlanmağa. Hələ də gənclikdən əlimizi üzmürük. Düşünürük ki, yox, o, əlimizdən hara gedə bilər ki?.. Lakin gedir, həm də sürətlə gedir. Getdikcə də zərbələrini vurur. Biz anlayanda ki, yox, ta o gənclikdən heç nə qalmayıb, başlayırıq onu yenidən axtarmağa. Bunun üçün axtarışlar edirik, nələrə əl atırıq, nə əziyyətlər çəkirik, zəhmət sərf edirik, lakin gəncliyi daha heç yerdə tapa bilmirik.

Yaşlanırıq Gəncliyin son nişanələrini itiririk. İtirdikcə də ən dəyərli nəyisə itirdiyimizi hiss edirik. Deyirlər, adam nəyisə itirəndə, ölənədək gözü onu axtarır. Bax, bir də gənclik belədir. Baxırsan ki, yaş ötüb, olub 50-60, sən hələ də onu-gəncliyi axtarırsan. Gözlərin hər yerdə onu gəzir. Fotoları tökürsən qarşına, başlayırsan onlarla danışmağa. Kimlərəsə o şəkilləri göstərməklə gəncliyini göstərmək istəyirsən. Sənin də gənclikdə gözəl və yaraşıqlı olduğunu sübut etmək, hamının bilməsini istəyirsən.

Lakin bunlar da keçicidir. Andır, anlar isə keçir, gedir. Sənsə olduğun yerdəsən. Daha gənc deyilsən, yaşlanmaqdasan. Bax bu an ürəklər sızlayır. Düşünürsən ki, ah, nə tez ötüb getdi gəncliyim. Kaş ki, bir daha dönərdim o çağlara. Kaş ki, yenidən gənc olardım. Kaş ki, o illərin bircə anını geri qaytara bilərdim. Təəssüf ki, mümkün deyil. Gənclik getmişdir, yerinə yaşlılıq gəlmişdir. Ta sənin yol yoldaşın təravət deyil, soluxmuş üz, qırışlı əllərdir. Nə qədər çalışsan da, şux qamət deyil, o sürətli addımlar deyil, əyilmiş qamətinlə yavaşıyan addımlardır. Sənin yolyoldaşın günəşin zərrin şəfəqlərində parıldayan saçlar deyil, yıpranmış, ağarmış, daha parlamayan saçlardır.

Bəs ürəklər... Bəli, tək ürəyin gəncliyini bizdən qoparmağa heç bir qüvvənin gücü çatmır. İçimizdə, köksümüzdə bəlkə də o da qocalır, bilmirəm kiçilirmi deyim, yaşlanma səbəbindən formasını itirirmi deyim, lakin istəkləri, həyata baxışı, dəyişmir. O, gənclik duyğuları ilə yaşayan və bu duyğuları hər an insana anladan tək olanımızdır. Bəlkə elə buna görə deyirlər ki, ürək qocalmır. Qocalmır, bəli. Gənclikdən bizə qalan tək ürəklərimizdir. Bəlkə də tək ürək qocalmır ki, gəncliyi hər an insana anlada. Nə qədər gözəl bir dövrün əldən getdiyini hər an xatırlada və deyə ki, insan övladı, nə üçün qədrini bilmədin gəncliyin. Bəli, elə bu səbəbdən ürəyin qocalmamasına hökm verilib, inanın

Beləcə, həyatda qiymətini biləcəyimiz, borclu olacağımız çox şeylər var. Gənclik də onlardan biridir. Gözəlliyimiz,yaraşığımız ilə birlikdə fəal, aktiv iş həyatımız da gəncliklə bağlıdır. Dünyaya övlad bəxş etməyimiz, onu böyük səbrlə böyütməyimiz də gəncliyin bəxşişidir. Ev qurmaq, ev sahibi olmaq da gəncliyin ərməğanıdır. Sözün həqiqi mənasında, bütün gözəl görünən hər şey gənclikdədir. Yaşayarkən qədrini bilmədiyimiz, sonra çıraq işığında axtardığımız gənclik

Qədrini bilin gəncliyinizin, əziz gənclər. Həqiqətən də gəncliyi bayram etmək, onu xüsusi gün kimi qeyd etmək ən gözəl ənənələrdən biridir. Onu ildə bir gün deyil, hər gün bayram kimi xüsusi təntənə ilə anmaq lazımdır. Çünki insan övladına verilən ömrün dörd fəslinin ən gözəli gənclikdir. Gənclik bahardır, yazdır. Çiçəkləri, rayihəsi ilə gözəldir. Rəngləri, rəngarəngliyi ilə gözəldir.

Demirik ki, uşaqlıq, qocalıq çağları yaxşı deyil. Onların da özünəməxsusluqları var. Biz uşaq olmasaq, gəncləşə bilərikmi? Gənc olmasaq, yaşlaşa, nənə-baba ola bilərikmi? Nəvə sevgisini, şirinliyini yaşaya bilərikmi? Ağ saçlar, ağ saçlar deyirik, yaşlanmasaq o müdrikliyi yaşaya bilərikmi? Bütün fəsillər kimi, insan ömrünün də bütün çağları gözəldir. Lakin gəlin etiraf edək ki, gənclik onların ən gözəli və əvəzolumazıdır. Sən nə qədər gözəlsən, gənclik!

***Mətanət Məmmədova***

# Heydər Əliyev-100

# Azərbaycan mədəniyyətinin BÖYÜK HİMAYƏDARI

Azərbaycan dövlətinin möhkəmləndirilməsində, inkişafında, zənginləşdirilməsində, gənclərin fiziki və mənəvi tərbiyəsində müstəsna rolu olan Ulu Öndər Heydər Əliyev mədəniyyətin xalqın mənəvi dünyasının, milli mövcudluğunun əsas atributlarından biri olduğundan daim bu sahəni diqqətdə saxlayırdı. Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra hər sahədə olduğu kimi, mədəniyyət sahəsinə də böyük diqqət ayırırdı. Mədəni həyatın demokratikləşdirilməsi, gənclərin, yeniyetmələrin, əmək qabilliyyətli insanların bu prosesdə yaxından iştirakını təmin etmək yönümündə addımlar atdı. Mədəni irsimizin qorunub saxlanmasında, inkişaf etdirilməsində, onun geniş təbliğində, dünya miqyasında şöhrət tapmasında Böyük Şəxsiyyət Heydər Əliyevin əvəzsiz xidmətləri oldu. Ədəbiyyat, teatr, kino, musiqi, rəssamlıq və bir çox başqa sahələrdəki inkişaf və tərəqqi Azərbaycan dövlətinin, onun rəhbəri Heydər Əliyevin diqqət və qayğısının nəticəsində reallaşdı. Ümummilli Lider Heydər Əliyevin milli-mənəvi dəyərlərimizə göstərdiyi qayğı müstəqil Azərbaycanın mənəvi həyatında əsaslı yüksəlişi ilə nəticələndi.

Qeyd edək ki, Azərbaycan tarixinin dönüş nöqtəsi 1969-cu ildən başlanır. Azərbaycan həyatında baş verən proseslər Heydər Əliyevin hakimiyyətdə olduğu bir zamanda öz həllini tapdı. Ümummilli Liderin milli mədəniyyətin, Azərbaycan elminin inkişafına diqqət ayırması respublikanın Avropa və dünya inteqrasiyasına daxil olması ilə nəticələndi. Sovet dövründə, eləcə də müstəqillik illərində elmi-mədəni potensialdan istifadə dövlətin siyasətinin başlıca amilinə çevrilmişdir. Dövrün tələblərini nəzərə alaraq, zəngin dəyərlərə malik olan xalqın intellekt potensialının üzə çıxarılması istiqamətində ardıcıl, məqsədyönlü fəaliyyət qısa bir zamanda öz nəticələrini vermiş oldu. Onun rəhbərliyi və təşəbbüsü ilə Azərbaycanda elm, mədəniyyət, təhsil ocaqları müasir standartlara cavab verən bir səviyyədə təmir və bərpa olundu. Ümummilli Liderin imzaladığı çoxsaylı sərəncamlar əsaslı dəyişikliklərlə nəticələndi. Respublikamızda kitabxanalar yaradıldı, muzeylər açıldı, teatr və musiqi ocaqları təmir edildi, eləcə də, ali təhsil ocaqlarına xüsusi diqqət yetirildi. Bütün bunların hər biri Azərbaycanın inkişafına, eləcə də gənc nəslin intellektual səviyyəsinin yüksəlməsinə təkan verdi. Eləcə də, regionlarda böyük işlər görüldü. Mövcud mədəniyyət müəssisələri təmir edildi, əhaliyə göstərilən mədəni xidmət yüksəldildi. Tarixi muzeyşünaslıq, diyarşünaslıq müəssisələri yaradıldı. Bu nöqteyi-nəzərdən Azərbaycan çox sürətlə inkişaf etməyə başladı. Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı XX yüzilliyin son onilliyində yaşanılan böhran, xaos, gərginlik kimi anları aradan qaldırdı. Bu qayıdış Azərbaycanın hərtərəfli və dinamik inaişafını təmin etdi və müstəqilliyin, demokratiyanın, milli tərəqqinin təməlinin əsasını qoydu. 1993-cü ildən gələcəyə ümid yox dərəcəsində idisə, qısa bir zamanda təfəkkürlərdə, milli düşüncələrdə dönüş yarandı.Qədim zəngin mənəvi mədəniyyətə malik xalqımız, məhz Ümummilli Lider Heydər Əliyevin mədəniyyət siyasəti nəticəsində öz varlığı, mənəvi irsi, keçmişi ilə fəxr edə bilər. Ulu Öndər Azərbaycan mədəniyyətinin və mənəviyyatının himayədarı idi. Həyatımızın bütün sahələrində iz salan Heydər Əliyevin elə qüdrətli və əzəmətli yadigarları var ki, zaman ötdükcə dahi şəxsiyyətin müqəddəs xatirəsi önündə ehtiramla baş əyir, əvəzsiz xidmətlərini heyrətlə, məhəbbətlə qarşılayırıq. Tarixi və mədəni hadisələrin məsafəsində Heydər Əliyevin xidmətləri daha parlaq, daha aydın görünməkdədir. Həyat təsdiqlədi ki, Azərbaycan mədəniyyətinin Heydər Əliyev qədər əsl himayədarı, böyük qayğıkeşi olmayıb.



**"ÖLÜLƏR" ƏSƏRİ İNSANLARIN GÖZÜNÜ REAL DÜNYAYA AÇMASAYDI, XALQIMIZ BU QƏDƏR İNKİŞAF EDƏ BİLMƏZDİ"**

*Ulu Öndər Heydər Əliyev*



## "İNCƏSƏNƏTİN, MƏDƏNİYYƏTİN, XÜSUSƏN DƏ, MAHNININ, MUSİQİNİN OYNADIĞI ROLU HEÇ BİR VASİTƏ OYNAYA BİLMƏZ"

Heydər Əliyev mədəniyyətə, sadəcə, qayğı göstərməklə kifayətlənmirdi. İstənilən musiqi əsəri, incəsənət xadiminin yaradıcılığı, teatr tamaşası haqqında elə dəqiq fikirlər söyləyirdi, təhlillər edirdi ki, sənətşünaslar belə həsəd aparırdılar. Heydər Əliyev hər bir sənət sahibi ilə məhz o sənətin mahir bilicisi kimi söhbət edirdi. Heydər Əliyevin xidmətləri nəticəsində Azərbaycan mədəniyyəti, sözün həqiqi mənasında, yüksəliş dövrü keçdi. Heydər Əliyev mədəniyyətin ictimai həyatda rolunu, mahiyyətini həmişə dəyərləndirir, mədəniyyət xadimlərini, musiqiçiləri yeni yaradıcılıq axtarışlarına ruhlandırmaq üçün onların əməyini yüksək qiymətləndirirdi. Azərbaycan incəsənətinin inkişafına nail olmaq üçün Heydər Əliyev görkəmli bəstəkarların, rəssamların, kino və teatr xadimlərinin yubileylərinin dövlət səviyyəsində keçirilməsinə böyük əhəmiyyət verirdi. 1994-cü ildə Heydər Əliyevin sərəncamı ilə böyük Azərbaycan şairi Məhəmməd Füzulinin 500 illik yubileyi təntənə ilə qeyd edildi. Böyük Azərbaycan şairinin qardaş Türkiyədə yubiley şənlikləri keçirildi.Heydər Əliyevin musiqi sahəsindəki unudulmaz xidmətlərindən söz açarkən vurğulamaq lazımdır ki, Müdrik İnsan müasir musiqinin yeni janrlarının yaradılması ilə bərabər, milli musiqimizin də unudulmamasına çalışırdı. Xüsusilə də Üzeyir Hacıbəylinin, Müslüm Maqomayevin əsərlərinin gənc nəsil tərəfindən öyrənilməsinə, tamaşaya qoyulmasına çox diqqət göstərirdi.



Ümummilli Liderin Üzeyir Hacıbəyli sənətinin mahiyyətini göstərərək deyirdi: "Əgər nəzərə alsaq ki, əsrimizin əvvəllərində xalqımızın əksəriyyəti savadsız idi, kitab oxuya bilmirdi və kitablar da az idi, kino, televiziya və başqa vasitələr yox idi, təsəvvür edin, Ü.Hacıbəyov öz operası vasitəsilə M.Füzulinin sözlərini, "Arşın mal alan", "O olmasın bu olsun" və başqa operettaları vasitəsilə istədiyi fikirləri insanlara çatdırmaqla xalqımızın mənəvi və mədəni inkişafında nə qədər böyük xidmətlər göstəribdir". Bu gün Azərbaycanda onlarla sənət xadimlərinin, yazıçıların, şairlərin, musiqiçilərin, rəssamların, memarların ev muzeyləri fəaliyyət göstərir. Azərbaycanda ev muzeylərinin yaradılmasının təşəbbüskarı da məhz Heydər Əliyevdir. Müdrik Şəxsiyyət həmişə milli mədəniyyətə, onun tarixi qaynaqlarına diqqətlə yanaşırdı. Bu səbəbdən də, Azərbaycan mədəniyyətinin son illərdəki tarixi inkişaf yolu, məhz Heydər Əliyevin himayəsi və nəzarəti altında davam etmişdir. Musiqi ayrı-ayrı xalqlara məxsus olsa da insanları birləşdirən ən yaxşı vasitədir. Bu mənada, müxtəlif xalqlar arasında mədəni körpülərin salınmasının vacibliyini dərk edən Ümummilli Lider çıxışlarının birində belə demişdi: "Mahnı, musiqi qədər, incəsənət, mədəniyyət qədər insanları bir-birinə heç nə bağlamır. İncəsənətin, mədəniyyətin, xüsusən də, mahnının, musiqinin oynadığı rolu heç bir vasitə oynaya bilməz".

## "ÖLÜLƏR" KİMİ ƏSƏRİ HEÇ KİM YARADA BİLMƏYİB"

Uşaqlıq və gənclik dövründən ədəbiyyatı və teatrı sevən Heydər Əliyev dünya ədəbiyyatında ən mükəmməl dram əsərləri ilə yanaşı, durmağa layiq olan "Ölülər"ə böyük sevgisi olmuşdur. "Ölülər"dəki komizm bir xalqın taleyi ilə bağlı olan dərin ictimai uyğunsuzluğun, ölü şüurla ağıl, mənəvi korluqla gözüaçıqlıq, ifrat xurafat və fanatizmlə sağlam düşüncə kimi ziddiyyət bu əsərin sevilməsində mühüm amildir. 1916-cı il aprelin 29-da ilk dəfə Bakıda göstərilən tamaşa həmin ilin iyununda Daşkənddə (özbək dilində), iyul ayında Mahaçqala şəhər teatrında, avqustda Vladiqafqazda, 1917-ci ildə Tiflisdə, Gəncədə, Naxçıvanda və s. şəhərlərdə tamaşaya qoyulub və böyük müvəffəqiyyət qazanıb. Hər zaman Azərbaycan mədəniyyətinə xüsusi diqqət və qayğı ilə yanaşan Ulu Öndər Heydər Əliyev də "Ölülər" əsərinə yüksək qiymət verib.

"Əgər Cəlil Məmmədquluzadə kimi şəxsiyyət dünyaya gəlməsəydi, öz fəaliyyətini göstərməsəydi, əgər "Molla Nəsrəddin" jurnalı yatmış insanları qaranlıqdan çıxarmağa çalışmasaydı, əgər onun "Ölülər" əsəri insanların gözünü real dünyaya açmasaydı xalqımız bu qədər inkişaf edə bilməzdi" - deyə Heydər Əliyev bildirmişdi.



Ulu Öndər özü müsahibələrində belə deyirdi: "Yuxarı siniflərdə oxuyarkən mən teatra böyük maraq göstərir, tez-tez yerli dram teatrının tamaşalarına gedib baxırdım... Beləliklə, teatrımız Mirzə Cəlilin "Ölülər" pyesini tamaşaya qoydu və mən də böyük məmnuniyyətlə bu tamaşaya bir neçə dəfə baxdım. "Ölülər" pyesi dərin fəlsəfi əsərdir. Öz fəlsəfi siqlətinə görə, o, Azərbaycan ədəbiyyatının dramatik əsərləri arasında ilk cərgədə durur. Eyni zamanda, onu digər əsərlərdən fərqləndirən cəhət dərin milli ruhu, xəlqiliyidir... Mən Şekspirdən başlayaraq bütün dram əsərlərini bilirəm. Hesab edirəm ki, "Ölülər" kimi əsəri heç kim yarada bilməyib. Çünki bu cür mövzu tapmaq özü bir fəlsəfədir, dahilikdir..."

Heydər Əliyev hələ gənc yaşlarından teatra çox bağlı idi. Məktəb və tələbəlik illərində dram dərnəklərində səhnədə çıxışlar edən Heydər Əliyev teatrı çox sevirdi və o, Azərbaycan milli teatrını bizim milli sərvətimiz adlandırırdı. Müntəzəm olaraq teatr tamaşalarını izləyən Ümummilli Lider yaradıcı heyətlə görüşüb, öz tövsiyə və tapşırıqlarını verirdi.

## "HEYDƏR ƏLİYEV VƏ MİLLİ TEATR SƏNƏTİ" LAYİHƏSİ

Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamı ilə ölkəmizdə 2023-cü ilin "Heydər Əliyev İli" elan olunması ilə əlaqədar Heydər Əliyev Mərkəzi bir sıra layihə və tədbirlərin keçirilməsini planlaşdırır. "Heydər Əliyev və milli teatr sənəti" layihəsi çərçivəsində isə Heydər Əliyev Mərkəzində silsilə teatr tamaşalarının nümayişi nəzərdə tutulur. Xatırladaq ki, fevralın 24-də Heydər Əliyev Mərkəzində Ümummilli Lider Heydər Əliyevin 100 illiyinə həsr edilmiş "Heydər Əliyev və milli teatr sənəti" la-



yihəsi çərçivəsində Cəlil Məmmədquluzadənin "Ölülər" pyesi nümayiş olunacaq. Tamaşa Heydər Əliyev Mərkəzinin və Mədəniyyət Nazirliyinin birgə təşkilatçılığı ilə Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının təqdimatında göstəriləcək. İki hissəli tamaşada Şeyx Nəsrullahı Xalq artisti Nurəddin Mehdixanlı, İsgəndəri isə Əməkdar artist Anar Heybətov canlandıracaq.

## HEYDƏR ƏLİYEV ELƏ BİR ÖMRÜN MÜƏLLİFİDİR Kİ, BU ÖMRÜN ARXASINDA AZƏRBAYCAN, AZƏRBAYCANA XİDMƏT, AZƏRBAYCANIN SİVİLİZASİYASI DAYANIR

Xalqın zəngin mənəvi dünyasının öyrənilməsi problemi müstəqil Azərbaycan Respublikasının qurucusu, Ümummilli Lider Heydər Əliyevin elm və mədəniyyət quruculuğu siyasətinin tərkib hissəsi kimi daim diqqət mərkəzində olmuşdur. 1993-cü ildə sosial-mədəni həyatımızda əhəmiyyətli dönüşə səbəb olan Böyük Qayıdışdan sonra məhz "Folklor sarayı"nın yaradılması böyük və uzaqgörən şəxsiyyətin uğurlu siyasətinin nəticəsi kimi gerçəkləşdi. Ulu Öndər Heydər Əliyevin təşəbbüsü, diqqət və qayğısı ilə formalaşmış "Folklor Sarayı" Elmi-Mədəni Mərkəzinin yaradılması faktı Azərbaycan xalqının mənəvi ehtiyatlarının demokratik cəmiyyət və dövlət quruculuğu işinə səfərbər edilməsinin real təzahürüdür. Qeyd edək ki, keçmiş Sovetlər Birliyi dönəmində müttəfiq respublikaların Elmlər Akademiyaları sistemində Folklor və Etnoqrafiya, Folklor və Arxeologiya bölmə və institutları fəaliyyət göstərirdi. Amma Azərbaycanda belə bir institut mövcud deyildi. Folklor Elmi-mədəni Mərkəzinin yaranması bu boşluğun aradan qaldırılması üçün geniş imkanlar açdı. Zəngin folklor materialının toplanması, tərtibi, təsnifi, tədqiqi və nəşri, eləcə də elmi-nəzəri və praktiki işlərin reallaşması ardıcıl və ciddi fəaliyyət sferasına daxil oldu. Belə səmərəli fəaliyyətin nəticəsi çoxcildli regional antologiyaların, tematik elmi topluların, dissertasiya və monoqrafiyaların, tədqiq və tərcümələrin mükəmməl nümunələrinin nəşri üçün geniş imkanlar açdı. Milli, humanitar, ictimai və milli-ideoloji təmayülünün istər elmi-mədəni, istərsə də ideoloji baxımdan əsas ağırlıq mərkəzlərindən birinə çevrilən Folklor İnstitutu yaradıldı. Özünəqayıdış, özündən istifadə, özünüdərk yalnız folklora qayıdışla, ondan faydalanmaqla mümkündür. Çünki folklorun yaddaşında hazır kodlar mövcuddur, sadəcə olaraq, informatik siqnalların göndərilməsi onların funksionallığını təmin etmiş olur. Bu mənada, Folklor İnstitutu milli-mənəvi dəyərlərin qorunduğu məbəddir. Heydər Əliyev elə bir ömrün müəllifi oldu ki, bu ömrün arxasında Azərbaycan, Azərbaycana xidmət, Azərbaycanın sivilizasiyası dayanır. Heydər Əliyev şəxsiyyət, siyasi xadim, xalqın dayağı, onun hərəkətverici qüvvəsi olaraq Azərbaycan tarixində əsrin lideri olduğunu təsdiqlədi. İstər sovet məkanında rəhbər olduğu illərdə, istərsə də hakimiyyətə qayıdışından sonra Heydər Əliyev xalqın tarixinə əməlləri ilə iz saldı. Zaman ən böyük hakim olduğundan qısa məsafədən Azərbaycanın şanlı və silinməz tarixi yazıldı. Ölkə daxilində aparılan məqsədyönlü işlər, eləcə də, sərhədlərdən kənarda Azərbaycanın yürütdüyü siyasət müstəqil dövlətin təməlinin sütunlarını möhkəmlətdi və əbədiləşdirdi.

**Z.BAYRAMOVA**

# Azərbaycan gəncliyinin gələcəyinə böyük inam

## Dövlət başçısının Sərəncamına əsasən, fəallığı ilə fərqlənən gənclərimiz mükafatlandırıldı



Azərbaycan gəncliyi hər zaman ictimai həyatın bütün sahələrində fəal mövqe sərgiləyərək, siyasi, iqtisadi, humanitar, sosial tədbirlərin həyata keçirilməsində mühüm rol oynayırlar. Üzərlərinə düşən vəzifələri layiqincə yerinə yetirən Azərbaycan gəncliyi, ölkədə gedən proseslərin önündə gedərək dövlət idarəçiliyi, iqtisadiyyat, mədəniyyət, idman, ordu və digər sahələrdə uğurla çalışaraq, ölkəmizi şərəflə və yüksək səviyyədə təmsil edirlər. Qürurla demək olar ki, bu gün Azərbaycan gəncliyi üzərinə götürdüyü şərəfli vəzifələrin öhdəsindən layiqincə gəlməyi bacarır. Hər zaman dövlət qayğısı ilə əhatə olunan gənclərimiz bu gün də 2 Fevral Azərbaycan Gəncləri Günündə də onlara ayrılan bu diqqəti görmüş oldular. Belə ki, Azərbaycan Prezidenti İlham Əliyev bir neçə gəncə Prezident mükafatlarının verilməsi haqqında Sərəncam imzalayıb. Gənclər üçün Prezident mükafatına namizədlərin seçilməsi üzrə Ekspert Komissiyasının təklifinə əsasən, elm, təhsil, mədəniyyət, gənclər siyasəti və gənclərlə iş, ictimai və sosialyönümlü fəaliyyət, innovasiya və sahibkarlıq sahələrində xüsusi fərqlənən şəxslərə 2023-cü il Gənclər üçün Prezident mükafatları veriləcək. Dövlət başçısının digər Sərəncamı ilə gənclər siyasəti sahəsində fəallığı ilə fərqlənən bir neçə gənc 2 fevral - Azərbaycan Gəncləri Günü münasibətilə "Tərəqqi" medalı, eləcə də "Dövlət qulluğunda fərqlənməyə görə" medalları ilə təltif olunublar.

### AZƏRBAYCAN GƏNCLİYİ MÜSTƏQİL, DEMOKRATİK, HÜQUQİ, SİVİLİZASİYALI DÖVLƏT QURUCULUĞU İŞİNƏ CƏLB EDİLDİ

Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan dövlət-gənclər siyasəti bu gün uğurla davam etdirilir. Heydər Əliyevin 1969-1982-ci illərdə respublikaya rəhbərlik etdiyi dövrlərdə yüzlərlə yeni tədris ocaqları, gənclik mərkəzləri, hərbi məktəblər açılmış, minlərlə azərbaycanlı gənc keçmiş SSRİ-nin nüfuzlu ali məktəblərində təhsil almış, müasir ixtisaslara yiyələnmişdir. Heydər Əliyevin şəxsi təşəbbüsü və qayğısı sayəsində o zamanlar Sovetlər İttifaqının 50-dən artıq iri şəhərinin 170 nüfuzlu ali məktəbində bütövlükdə 80-dək sahəni əhatə edən 150 ixtisas üzrə 15 mindən çox azərbaycanlı gəncin ali təhsil almasına, yüksək ixtisaslı mütəxəssis kimi hazırlanmasına imkan və şərait yaradılmışdır. Ulu Öndər müstəqillik dövründə gənclər siyasətinə önəm verərək, onların təşkilatlanmasına xüsusi diqqət ayırıb. Gənclər, İdman və Turizm Nazirliyinin yaradılması, müstəqil Azərbaycan gənclərinin ilk Ümumrespublika Forumunun keçirilməsi, dövlət proqramlarının qəbulu, "Dövlət-gənclər siyasəti haqqında" Fərman və geniş Fəaliyyət Proqramının təsdiq edilməsi Ulu Öndər Heydər Əliyevin gənclərə böyük qayğısı idi. Bu gün Azərbaycan vətənpərvər və istedadlı gənclər ölkəsidir. Ulu Öndər Heydər Əliyev deyirdi: "Bizim hamımızın vəzifəsi Azərbaycanın gənclərini milli vətənpərvərlik ruhunda tərbiyə etməkdir, gənclərimizi bilikli etmək, müasir dünyanın əldə etdiyi nailiyyətlər səviyyəsinə qaldırmaqdır, respublikamızın gənclərini Azərbaycanda müstəqil, demokratik, hüquqi, sivilizasiyalı dövlət quruculuğu işinə cəlb etməkdir".

### GƏNCLİK YENİ NƏFƏSDİR

Ümummilli Lider Heydər Əliyevin gənclər siyasəti Onun layiqli davamçısı, dövlət başçısı Cənab İlham Əliyev tərəfindən uğurla həyata keçirilir. Gənclərin cəmiyyət həyatında fəal iştirakını təmin etmək məqsədilə dövlət tərəfindən həyata keçirilən tədbirlər öz nəticəsini verir. 2005-2009-cu və 2011-2015-ci illəri əhatə edən "Azərbaycan gəncliyi" dövlət proqramlarının uğurla həyata keçirilməsi, bilikli, peşəkar, istedadlı gənclərin dəstəklənməsi üçün "Prezident Mükafatı"nın təsis edilməsi, gənclər forumlarının keçirilməsi gənc nəslin hərtərəfli inkişafını stimullaşdırıb. "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsil üzrə Dövlət Proqramı" bütün təbəqədən olan gənclərin xaricdə təhsilinə geniş imkanlar açmış oldu. Dövlət Proqramı çərçivəsində gənclərə dünyanın 33 ölkəsinin 544 ali təhsil müəssisəsində təhsil almaq imkanı verildi.

Bakıda və regionlarda istifadəyə verilən "Gənclər ev"ləri (mərkəzləri), olimpiya idman mərkəzləri gənclərin maraq dairəsini genişləndirib, asudə vaxtın mənalı və səmərəli təşkili üçün yeni imkanlar yaradıb. Son illər ərzində gənclərin ictimai fəallığı yüksəlib, onların idarəetmədəki rolu artıb. Minlərlə gənc beynəlxalq miqyaslı tədbirlərdə ölkəmizi uğurla təmsil edir, idmançılarımızın qələbələri sayəsində Azərbaycan bayrağı xarici dövlətlərdə qürurla yüksəlir. İdmançılarımız Avropa Oyunlarında komanda hesabında ikinci yeri, İslam Həmrəyliyi Oyunlarında birinci yeri tutdu. Müxtəlif xarici ölkələrdə təhsil alan azərbaycanlı gənclər və məzunlar, orada çalışan gənc mütəxəssislər Azərbaycan diasporunun formalaşmasında və lobbiçilik fəaliyyətində yaxından iştirak edirlər.Gənclik gördüyü işlə, qazandığı nailiyyətlərlə ölkəmizin daha da inkişaf etdirilməsinə töhfə verəcək. Bu gün hər kəsə yaxşı məlumdur ki, gənclik cəmiyyətin aparıcı qüvvəsidir. Eyni zamanda da, daim axtarışda olan, yeniliyi sevən bir qüvvədir.

### AZƏRBAYCAN GƏNCLƏR SİYASƏTİ DÜNYADA MÜASİR VƏ UĞURLU MODELDİR

Bu gün müstəqil Azərbaycan dövlətinin gəncləri vətənpərvər ruhlu gənclərdir. Ulu Öndər Heydər Əliyevin siyasətini uğurla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyev ölkəmizin qüdrətli dövlətə çevrilməsi naminə gənclərə böyük inam bəsləyir, onlara geniş imkanlar açılır. Təbii ki, hər bir dövlətin əsas missiyası gələcəyini etibar edəcəyi nəsil formalaşdırmaqdır. Prezident İlham Əliyevin sərəncamları ilə təsdiq olunan dövlət proqramları gənclərin potensialından ölkənin mənafeyi naminə tam və düzgün istifadə olunması, dövlət idarəçiliyi sistemində iştirakının gerçəkləşdirilməsində əhəmiyyətli rol oynayır.

### MİNGƏÇEVİR 2023-CÜ İL ÜÇÜN "GƏNCLƏR PAYTAXTI" SEÇİLDİ

Gənclərə ayrılan daha bir diqqətdir ki, ölkəmizin bir neçə şəhəri müxtəlif illərdə Azərbaycanın "Gənclər paytaxtı" elan edilib. 2012-ci ildən başlayaraq hər il paytaxt Bakı şəhəri istisna olmaqla, Azərbaycanın şəhər və rayonlarından biri "Gənclər paytaxtı" elan olunur. Bu günədək Gəncə, Biləsuvar, Quba, İsmayıllı, Şəmkir, Balakən, Naxçıvan, Şamaxı, Masallı şəhər və rayonları Azərbaycanın "Gənclər paytaxtı" seçilib. Məlumat üçün bildirək ki, "Gənclər Paytaxtı" 1 il müddətinə seçilir. Gənclər Günündə Mingəçevir 2023-cü il üçün "Gənclər Paytaxtı" seçildi.

Bu müddət ərzində, həmin şəhər (rayon) gənclərin ictimai, siyasi, sosial, iqtisadi və mədəni həyatda fəal iştirakını təmin edir, onların intellektual və yaradıcılıq potensialının artırılması yeni ideya və layihələrinin həyata keçirilməsinə dəstək verir. Bu gənclərə göstərilən diqqət, qayğı və etimadın bariz nümunəsidir. Bu, bütövlükdə, Azərbaycan dövlətinin gənclərin ictimai-siyasi fəallıqlarına, müxtəlif sahələrdə qazandıqları əhəmiyyətli uğurlara verdiyi yüksək qiymətdir. Azərbaycan gəncləri bundan sonra da gördüyü işlərlə, qazandığı yeni-yeni nailiyyətlərlə ölkəmizin daha da inkişaf etdirilməsinə öz töhfələrini verəcəklər.Son illər gənclər siyasətinə ayrılan diqqət və qayğının nəticəsidir ki, gənclər bu gün dövlət orqanlarında, parlamentdə, bələdiyyələrdə, biznes strukturlarında və s. sahələrdə uğurla təmsil olunur və cəmiyyətin inkişafına öz töhfələrini verirlər. Təsadüfi deyil ki, Azərbaycanda həyata keçirilən gənclər siyasəti dünyada müasir və uğurlu model kimi qiymətləndirilir.

**Zümrüd**



# Bu İran nəmənə şeydirsə...

MƏTANƏT

***Hələ "Molla Nəsrəddin" dövründə yazırdı: "Bu İran nə mənə şeydirsə, aftafasını əlinə alıb, Arazı keçib gəlib bizə din dərsi verməyə çalışır, amma dərindən baxanda görürsən ki, bu zatların hamısı dələduz, fırıldaqçı və millətin kürəyinə yapışmış molla zəliləridir".***

Allah sizə rəhmət eləsin, mollanəsrəddinçilər, bu yazdıqlarınızı sanki bu gün üçün söyləmisiniz. Həqiqətən də elə bil aradan bu qədər illər keçməyib ki, keçməyib. İran elə İranlığında qalmaqdadır. Burada insanların hüquqlarını heçə sayan, onları həmişə təzyiq altında saxlayan, din pərdəsi altında min bir fırıldağa yol açan molla rejimi elə həmin rejimdir ki, dəyişməz olaraq qalır.

Öz ölkəsində insan amilinə heç bir dəyər verməyən, günahkarı ictimai qınaq, hüquqi cəza əvəzinə dar ağacından asdıran, insanlığı təhqir edən bu rejim, bəli, hələ bir bizə də, başqalarına da insanlıqdan, siyasətdən dərs verməyə, yol göstərməyə çalışır. Deyir, keçəl dərman bilsə, birinci öz başının çarəsinə baxar da. Bəs belə olan təqdirdə İranın molla rejimi nə üçün öz ölkədaxili problemlərini həll edə bilmir və yaxud həll etməyə cəhd etmir, başqalarına yol göstərməyə çalışır. Hə, bunun iki səbəbi var. Ya başı başqalarını qızışdırıb qonşunun üstünə salmağa qarışıb, ya da daxilindəki parçalanma və qarşıdurmalardan özünü o qədər itirib ki, nə edəcəyini bilmir.

Axı belə götürəndə, molla mollalığında qalar, bu qədər də problem yaşanmaz da. Molla qalxıb siyasətlə məşğul olanda, dövləti də belə idarə edəcək də. Budur bax, bir tərəfdən ölkə qarışıb bir-birinə. İnsanlar dövlətə qarşı çıxıb hüquqlarını, haqlarını tələb edirlər. Bir tərəfdən idarə edə bilmədikləri ölkədə səfirliyə hücumlar olunur. Bunun da qarşısını almağa çalışmırlar. Digər tərəfdən isə ərazisində zəlzələ baş verir, insanlar kütləvi şəkildə zərər çəkirlər, onlara nə özü yardım edir, nə də kənar yardım göstərməyə icazə verir.

Məsələ gün kimi aydın deyil, bəs necədir? Aydındır, aydın olan budur ki, dələduz, fırıldaqçı və millətin kürəyinə zəli kimi yapışmış molla rejimi nə qədər bərqərar olacaqsa, İranda yaşayan insanların bundan savayı görəcəkləri olmayacaq.

İkiüzlülük deyək, çoxüzlülük deyək, yoxsa yoxüzlülük deyək ki, molla rejiminin əsl üzünü açsın, ortaya qoysun. Ortaya qoysun ki, bir dövlət zəlzələdən əziyyət çəkən insanlara yardım etmir, vətəndaşının qayğısına qalmır. Çünki o vətəndaşlar azərbaycanlılardır. Bax, mahiyyət bundadır. Çünki İranın tarixən dərdi-səri Azərbaycan məsələsi olub. Nə edək, necə edək ki, azərbaycanlıların dilini kəsək, başlarını qalxmağa qoymayaq. Ki, başları qalxan kimi şimal-cənub söhbəti də baş qaldıracaq.

Budur, İranda azərbaycanlılara qarşı köhnə niyyətlər. Bu səbəbdən də molla rejimi azərbaycanlıların qəniminə çevrilib. Xoyda köməksiz, çarəsiz qalan insanlara nə özü kömək edir, nə də Azərbaycan və Türkiyədən yardım almalarına imkan vermir. Belə bir sual çıxır meydana: görəsən İranda bineyi-qədimdən əldə rəhbər tutulan və pərdəsi altında min yox, min bir oyun törədilən din mollalar üçün bu qədər əhəmiyyətsizdir? Ətrafa din dərsi keçənlər indi nə üçün bu dinə qarşı çıxırlar? Axı o din ədaləti, haqqı, mərhəməti təlqin edən dindir.

Bir də ki, kimdən, nədən danışırıq axı? İndiyədək hansı mərhəmətin, haqqın-ədalətin sahibi olub axı bu rejim? Ki, indi biz yenə də bu mövzuya qayıdırıq. Dar ağacından asılan insanlara bu cür cəzanı din qadağan etdiyi halda bunlar əsrlərdir ki, o dinə qarşı çıxmırlarmı? Günahsız minlərlə insanın qanını tökən, heç bir günahı olmayan adamları bir gecənin qurbanına çevirən bu dinsizlərdən nə gözləmək olar? Onları nə Azərbaycan səfirliyində hazırladıqları planlı faciə, nə də Xoyda zəlzələdən əziyyət çəkənlər düşündürəcək. Təəssüf, çox təəssüf ki, İran, sən molla rejiminin bu cür qurbanı oldun. Təəssüf ki, 30 mindən artıq soydaşımız orada bu zülmlərlə üz-üzədir. Düşünəndə bu İran nə mənə şeydir axı...

# Dilemma: Müəllimin gənci, yoxsa yaşlısı?

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “Elmi-kütləvi, mədəni-maarif, təhsil proqramlarının hazırlanması” istiqaməti çərçivəsində hazırlanıb*

**İdeal insan olmaq olmur, amma ideal peşə sahibi olmaq mümkündür. Bu peşələr içində müəllimlər gözümüzdə ideallaşdırdığımız ilk insanlar olur. Həyatı onların sözləri ilə tanımağa başlayırıq, verdikləri istiqamət üzrə gedirik, tövsiyələri bizə kompas olur. İdeal müəllim olmaq üçün uzun müddət təcrübə də keçmək lazım gəlir. ”Gəncdir, dinamikdir, demək yaxşı müəllimdir” fikri ilə heç vaxt razılaşmayan biri kimi deyə bilərəm ki, yaxşı müəllimlik həm də təcrübədən doğur.**



Məşhur bir alimdən soruşurlar- elmin əsas bazası nədir? Cavab verir ki, təcrübə. Bəs bilik?-deyə təəccüblə soruşurlar. Bilik hərdən bir lazım olur- alim cavab verir. Bu qısa sual-cavabda nə qədər dərin bir hikmət yatır. Həyatın istənilən sahəsində, istənilən peşədə nəzəri biliklərin qazanılmış təcrübənin yanında heç nə olduğunu hamı bilir. Ən yaxşı hal bu ikisinin bir yerdə olduğu haldır. Bu isə yalnız yaşlı müəllimlərdə olur.

Müəllimlik fədakarlıq tələb edən peşədir. Əsl müəllim ilk gün öz işinə necə həvəslə başlayırsa, bütün peşə həyatı boyunca elə də davam edir. Xalqın balalarını işıqlı gələcəyə aparmaq üçün özünü şam kimi yandırır. Bizim Cəbiş müəllim obrazında olduğu kimi. Bəzən etinasızlıq görür, bəzən diqqətdən kənar qalır, bəzən valideynlərin giley-güzarına məruz qalır, bəzən direktordan dəstək görmür, üsyan edir, yorulduğunu deyir, amma üsyanı sabahı gün sinif otağına girənədək olur. O, yenə öyrədir, yenə zəka, işıq paylayır. Təhsil sistemindəki axsaq qaydalar onu ruhdan salmağa çalışır, amma o, fədakarlığından yorulmur. Çünki o müəllimdir, öyrədəndir. Önlərində baş əydiyimiz, pencək düymələdiyimiz, 40-50 yaşımızda belə küçədə rastlaşanda siqaret gizlətdiyimiz, yanında yemək yemədiyimiz, su içmədiyimiz müəllim...



### Müəllimin yaşı vacibdir, yoxsa biliyi, təcrübəsi?

Bəzilərində belə bir fikir formalaşıb ki, yaşı çox olan müəllimlər təhsildən uzaqlaşmalı, yerini gənc müəllimlərə verməlidir. Bu fikri onlarda həm müvafiq nazirlik formalaşdırır-yaşlı müəllimləri sıxışdırmaqla, təqaüdə göndərməklə hədələməklə, səbrlərini sınamaqla, həm şagirdlər formalaşdırır- yaşlı müəllimlərin dərsini sevmədiklərini, onların uşaqları başa düşmədiyini iddia etməklə, həm də valideynlər- uşaqlarına müəllimin yaşlı-gənci olmasının fərqi olmadan ona hörmət etməyi öyrətmədiyinə görə.

Gənclər işləmək istəyir, bu əladır. Bunun üçün vakant yerlər də var. Kənd və rayonlarda riyaziyyat müəllimi informatikanı tədris edir, fizika müəlliminə kimya dərsi həvalə edirlər müəllim olmadığı üçün. Amma əksər gənc müəllimlər şəhərdə işləmək istəyir. Başa düşürəm, doğulduğu, böyüdüyü, alışdığı mühitdə işləmək ona rahatdır. Lakin kənddə doğulan, orda təhsil alan gənclərimiz də var ki, universiteti bitirdikdən sonra dağ rayonlarına, kənd məktəblərinə getmək istəmirlər. Bəs o ucqar kəndlərdəki uşaqlara kim dərs deyəcək? O uşaqlar da oxumaq istəyir axı. Bu gün yaşlı deyilən o müəllimlərin əksəriyyətinin ilk peşə təcrübəsi o kəndlərdən başlayıb. Təcrübə yalnız şəhər məktəblərində qazanılmır. Təcrübəli müəllim olmaq üçün hər şəraitdə işləməli, hər mühitdə elm aşılamağı bacarmaq lazımdır.

### Gənc kadrlar niyə kənd məktəblərində işləmək istəmir?

Regionlarda müəllim çatışmazlığı barədə zaman-zaman açıqlamalar da verilir. Müəllimlik ixtisasını bitirən gənclər çatışmazlıq olan məktəblərdə işləmək istəmirlər. Doğrudur, sistemin özündə də problemlər var, yerləşdirmə, yerdəyişmə mexanizmi doğru qurulmayıb. Qazaxdan olan müəllim Zaqatalaya təyin edilir, Qubadan olan müəllim Tovuza. Bu mexanizmi elə qurmaq olar ki, müəllimlər təyinat zamanı ya yaşadıqları rayona, yaxud da qonşuluqdakı rayona düşsünlər.

Amma müəllimlər vakansiya seçəndə də etinasızlıq edirlər. Ağdamda yaşayırsa, Oğuzda olan vakansiyanı seçir. Seçim başa çatır, amma Ağdamdakı müəllim Oğuza getmir. Vakansiyanı məşğul edir, yerdəyişmə üçün müraciəti cavabsız qalır, beləcə çətinliyi şagirdlər çəkir. Üstəlik, yüksək bal yığanı mərkəzə, nisbətən az balı olan müəllimləri kəndlərə göndərməklə təzad yaratmaq da ayrı bir mövzudur.





Maraqlıdır ki, müəllimlərin sertifikasiya məsələsinə ən çox gənc müəllimlər sevindi. Müşahidələrimə əsasən deyə bilərəm ki, yaşlı müəllimlərin texnologiya ilə ayaqlaşa bilməyəcəyi və buna görə sertifikasiyadan keçə bilməyəcəyini iddia edən gənc müəllimlər onların təhsil sistemində gənclərin yerini tutduğunu iddia edirlər. Amma bayaq da qeyd etdiyim kimi, kəndlərdə, rayon məktəblərində müəllim çatışmazlığı var və bu, paradoks deyil, bəs nədir?

### Müəlliminə ağıl öyrədən gənclik

Çox rast gəlirəm, 25-30 yaşlarında gəncləri seminarlara dəvət edirlər, trenerlik etmələrinə imkan yaradırlar. 25 yaşlı bir gənc öz uğur hekayəsini paylaşanda inandırıcı olur, 50 yaşlı bir müəllim üçün bu imkan yaradılmır, təcrübələrindən istifadə edilmir. Çünki onun adının üstünə yapışdırıblar- ”SƏN YAŞLISAN!”. Müəllim üçün unudulmaq çətindir. Təqaüddə olan müəllimlər heç kimin yadına düşmür. Ömrünü təhsilə verən, başının tükü sayı tələbə yetişdirən, saçlarını elm yolunda ağardan o insanlar unudulurlar. 20-25 yaşlı gənc efirdə elmdən, təhsildən, tərbiyədən danışır, milyonlara ağıl verir, vaxtilə ona dərs demiş müəllimlərinə yol göstərir. Niyə? Çünki o televiziyalara qocaman müəllimlərin efirdə ağıllı söhbət etməsi lazım deyil, öz cəfəngiyyatını ictimaiyyətə sırımaq firinə düşən mənasız məşhurluğu olan insanlar lazımdır.

20 illik peşə fəaliyyətim dövründə həm TV, həm qəzet, həm də sayt təcrübəm olub. Yazılarımı hazırlayanda minlərlə həmsöhbətim, qonağım olub bu illərdə. Onların içində bütün peşələrdən insanlar olub, amma mən yalnız müəllimlərlə həmsöhbət olarkən onların küskünlüyünü hiss etmişəm. Yaşı 65-ə çatan bir müəllimə işləmək qadağası qoyan qanun bu qadağanı niyə direktorlar, dərs hissə müdirləri üçün də qüvvədə saxlamır? Kabinetində kök salan 80 yaşlı direktorlara niyə işləmir bu qanun? Pensiya yaşı tamam olan əksər müəllimləri maraqlandıran bir sual da odur ki, niyə 90 faiz halda onların işinə xitam verilir, 10 faizlik qisim isə yenidən müqavilə ilə işə davam edəbilir. Bu seçim hansı əsaslarla edilir, işinə davam edə bilən müəllimlərin təqaüdə göndərilən müəllimlərdən nə fərqi var?

Təhsil sistemindəki bütün çatışmazlıqların səbəbini yaşlı müəllimlərdə görən gənc müəllimlər də kifayət qədər çoxdur. Onlar elə düşünürlər ki bütün təhsil ocaqlarında universiteti yeni bitirən və daha dinamik olan gənc müəllimlər işləsə bütün problemlər həll olunacaq. Doğrudur, hardasa razılaşmaq olar ki, gənc nəsil daha dinamikdir, texnoloji imkanlardan daha çox faydalana bilirlər, yeni dərs metodlarına daha tez adaptasiya olurlar. Lakin unudurlar ki, heç bir texnoloji yenilik illərin təcrübəsinin yerini tuta bilmir. Sinif otaqlarının tozunu udauda qocalan, saçını məktəb dəhlizlərində, sinif otaqlarında ağardan müəllimlərin təcrübəsini onlara heç bir texnoloji imkan, süni intellekt verə bilməz.

### Bizi göyə qaldıranı biz yerə vururuq

Nə öyrənmənin, nə də öyrətməyin yaşı olmaz deyirlər. Ömrü boyu öyrədən müəllimlər yeni sistemi öyrənmək üçün o qədər də çox vaxt sərf etmədilər, zamanla uzlaşmağı, yeni sistemlə ayaqlaşmağı öyrəndilər. Axı indi imtahanda yüksək nəticə göstərən gənc müəllimlər də onların yetirməsidir.

Empatiya hissi insana verilmiş ən gərəkli hissdir, insan o zaman müdrikləşir ki, qarşısındakı insanın yerinə özünü qoya bilir. Müəllimlərə qarşı valideynlərin və şagirdlərin davranışını uzun müddətdir izləyən biri kimi deyirəm ki, müəllimlər sadəcə dözürlər. İşləyə bilmək üçün, işlərini itirməmək üçün, ehtiyacları olduğu üçün. Saysız-hesabsız şagird ədəbsizliyinə dözən, bu susqunluğunu bir gün dözməyərək pozan müəllimin arxasında nə nazirlik, nə də məktəb durmur. Valideyn tərbiyə vermədiyi övladını müəllimi təhqir etməkdə haqlı görür. Nazirlik və məktəb rəhbərliyi ən yaxşı halda susur, bir çox halda o müəllimi valideyndən və şagirddən üzr istəməyə məcbur edir.

Bu yanaşmanı dayandırın- kişi müəllimləri məktəblərdən didərgin saldınız, indi də təcrübəli müəllimləri didərgin salmayın. Təhsil sistemini apardığı əcaib eksperimentlərlə biabırçı vəziyyətə gətirən nazirliklə və uşaqlarına tərbiyə verməyən valideynlərin cəzasını müəllimlərin boynuna yükləməyin. Sağlam gələcək yetişdirmək istəyirsinizsə, əlbəttə.

***Lalə Mehralı***

# İranda hökm sürən TƏHLÜKƏLİ VƏZİYYƏT

***Dinc etirazlar heç də təhlükəli deyil, amma vay o gündən ki, həmin o dinc etirazlar öz xarakterini dəyişə, yəni daha dinc xarakterli olmaya. Belə olduğu zaman isə həmin etirazlar idarə olunacaq həddən çıxırlar və dövlət üçün belə bir hal arzuolunan deyil. Belə bir arzuolunmaz vəziyyətdə indi İran dövlətidir. Molla rejiminin idarə etdiyi dövlət nəinki artıq etirazların öhdəsindən gələ bilmir, hətta idarə edəcək vəziyyətdə də deyil və ona görə də bütün zorakılıqlara və qeyri-humanist, qanunsuz əməllərə əl atır. Əslində bu, hal İran üçün çox təhlükəlidir və bu ölkədə artıq təhlükəli vəziyyət hökm sürür.***

Vətəndaşlar öz problemlərini işıqlandırmaq istədikdə və bunu heç bir təzyiq olmadan etdikdə bu dinc etiraz aksiyası hesab olunur. Məsələn, bir qrup insan meydana toplaşıb dinc şəkildə aksiya keçirə və onlara aid olan problemləri səsləndirə bilərlər ki, burada qeyri-adi heç nə yoxdur. Əksinə, belə bir cəmiyyət demokratik cəmiyyət hesab olunur, təbii ki, əgər buna qarşı dövlət tərəfindən zorakılıq tətbiq olunmursa, insan haqlarının, söz azadlığının qarşısı alınmırsa. Sözsüz ki, İranda belə bir aksiyadan artıq danışmaq mümkün deyil. Ona görə ki, bu ölkədə səsini çıxaranın dərisini boğazından çıxarırlar. Bir sözlə, İranda dinc etiraz aksiyası barədə artıq söhbət ola bilməz. Bir ölkədə ki, baş örtüyünün yanlış şəkildə bağlanılmasına görə vətəndaş döyülə, həbs oluna, hətta güllələnə bilər, həmin ölkədə dinc etiraz aksiyası sözünü dilə gətirmək mümkündürmü? Əlbəttə ki, mümkün deyil və bu ölkə İrandır.

İran elə bir ölkədir ki, artıq ötən ilin sentyabr ayından orada etiraz aksiyaları sengimək bilmir və təlatümlər davam etməkdədir. Özü də həmin aksiyalar çoxdandır ki, kütləvi xarakter alıb. Bir müddət İranın hakimiyyəti həmin etiraz aksiyalarının öhdəsindən gələ bilirdisə, indi artıq bu mümkün deyil. Etirazlar idarəolunmaz hala gəlib çatıb və İran hökumətinin çarəsizliyi artıq göz önündədir. Məhz belə bir çarətsiz vəziyyətdə qalan molla rejiminin idarə etdiyi dövlət həmin o etiraz aksiyası iştirakçılarına divan tutmağı çıxış yolu hesab edir. Etiraz aksiyalarında iştirak etdiklərinə görə, artıq 500 nəfərə yaxın adam öldürülüb. Bəli, öldürülüb. Özü də amansızlıqla. Eyni zamanda, etirazçılardan 14 minə yaxını qanunsuz şəkildə həbs edilib və söz, ifadə azadlığı da, hüquqları da pozulub. Hətta həbs edilənlərdən bir neçəsi edam belə edilib və bu, həmin ölkə hakimiyyəti üçün məqbul sayılır. Buna nə ad vermək olar? Təkcə qanunsuzluqmu? Xeyr, bu, həm də vəhşilikdir.








Niyə molla rejiminin idarə etdiyi hakimiyyət bu hərəkətləri edir? Niyə bu hakimiyyət bir zərrə qədər belə qanunsuzluqlardan və vəhşiliklərdən çəkinmir? Ona görə ki, xüsusi bir qrup ölkənin bütün hakimiyyətini və əsas sərvətini ələ keçirib. Kimdir onlar? Onlar İslam İnqilabı Keşikçiləri Korpusunun üzvləri və digər qruplaşmalardır ki, hakimiyyəti və sərvəti heç kiminlə bölüşmək istəmirlər. Çünki dövlətdən, bir sıra dövlət şirkətlərindən özləri və əlaltıları külli miqdarda vəsait də oğurlayırlar, hətta talayırlar da. Bu ölkənin korrupsioner elitasının üzvləri özləri milyonçulardır və ölkəni də özləri qarət edərək milyonçuya çevriliblər. Elə buna görə də imtiyazlarından, imkanlarından, var-dövlətindən istifadə edərək, səsini çıxaranı, hətta onlarla az da olsa razılaşmayan hər kəsi qətlə yetirməkdən bələ zərrə qədər çəkinmirlər.

Molla rejiminin idarə etdiyi hakimiyyətə qarşı əhalinin 70 faizindən çoxu etiraz edir və bu hakimiyyətin əleyhinədir. Milli azlıqların, ümumiyyətlə, İran hakimiyyətini görməyə gözü yoxdur. Onlarda həmin hakimiyyətə nifrət hissindən başqa bir şey yoxdur. Ona görə ki, onlar ayrı-seçkiliyə məruz qoyulurlar. Hətta bəzən alçaldılırlar da. Onlara öz dillərində danışmaq belə yasaq sayılır, nəinki öz dillərində təhsil almaq. Bu vəhşi qaydalara tabe olmayanlar üçün cəza tədbirlərinə də əl atılır və öz dilində danışanlar qəddarcasına cəzalandırılırlar. Milli azlıqlara qarşı zorakılıq bu ölkədə adi hala çevrilib. Belə bir tələblə küçə və meydanlara çıxanlar isə polisin çox pis şəkildə müqaviməti, hətta zorakılığı ilə qarşılaşmalı olurlar. Təbii ki, hüquqları tapdalanan İran vətəndaşları buna qarşı etirazlar edirlər. Özü də bu etirazlar artıq heç də dinc etirazlar deyil. Bəzən İran polisinin zorakılığından cana gələn, bəzən bir qrup insan, məsələn, tələbələr, fəhlələr molotof kokteylindən istifadə edərək polisə qarşı güc də tətbiq edirlər. Bu isə o deməkdir ki, etiraz aksiyaları bu ölkədə dinc xarakterini artıq itirib. Hər an gözlənilməz hadisə baş verə bilər və qırğınların qarşısını almaq belə mümkün olmaz. Deməli,

İranda vəziyyət çox təhlükəlidir.

Sözsüz ki, belə vəziyyət, bu şəkildə olan hal, yəni güc tətbiqi arzuolunan deyil, amma etiraf edək ki, İranda hakim qrupla başqa dildə danışmaq həm faydasızdır, həm də mümkün belə deyil. Baş örtüsünün yanlış bağlanılmasına görə cəza tətbiq edən, vətəndaşını həbs edən, hətta qətlə yetirən, edam edən bir hakimiyyətlə hansı dildə danışıla bilər axı? Mövhumatdan bilərəkdən istifadə edərək kütləni itaətdə saxlayan bir hakimiyyət ilə bəlkə hansısa dildə danışmaq mümkündür? Bəlkə, molla rejiminə dinc aksiyalar hansısa təsirə malik ola bilər? Ümumiyyətlə, bu rejim dinc aksiyalara belə zorakılıq etmədən imkan verirdimi ki, əhali, vətəndaşlar öz etirazlarını bildirsinlər? Belə olan halda, zorkılığa qarşı etirazçılar da zorakılıq tətbiq etməyə başlayırlar və bu da artıq kütlənin, etirazların idarəolunmaz halı deməkdir. Belə bir hal isə ölkədə vətəndaş müharibəsinin olmasından, təhlükəli vəziyyətdən xəbər verir.

Bəli, İran polisi etriaz aksiyası iştirakçılarına qarşı güc tətbiq edir, zorakılıq edir. Aksiya iştirakçıları da buna adekvat cavab verməli olurlar. Üstəlik, qarşıdurmalar da öz məcrasını, həddini çox aşıb. Bir sözlə, vətəndaş müharibəsi bundan artıq necə olmalıdır? Bunumu istəyirdi İran hakimiyyəti? Zorakılıqla, qanunsuzluqla istədiklərinə nail ola bildilərmi? Bu hal İran üçün məqbul sayıla bilərmi və görəsən indi molla rejimi rahatdırmı? Əlbəttə ki, rahat deyil və həmin rejim özü indi tikan üstündə oturub. Bununla belə burnunu Ermənistanın timsalında başqa dövlətlərin işinə soxur və qarışıqlıq salmaq üçün əldən-ayaqdan gedir. Bu məqsədlə də işğalçını, terrorçunu həvəsləndirir, ruhlandırır ki, bölgədə vəziyyəti bir qədər də qarışdırsın. Hətta silahsursat yardımına qədər işğalçıya dəstək olur və bununla da sabitliyin, stabilliyin pozulması üçün bütün mümkün əməllərə əl atır. Maraqlıdır, birdən İranda hər şey qaydasında olsaydı nə edərdi və Ermənistan üçün nələr edərdi?

"Özünə umac ova bilməyən başqasına əriştə kəsir", zərb məsəlində deyildiyi kimi, İran da öz daxilindəki vəziyyətə, özü də təhlükəli vəziyyətə nəzarət edə bilmədiyi halda Ermənistana dəstək verir. Bu qədər etiraz dalğasının fonunda, özü də vətəndaş müharibəsi həddində bir vəziyyətdə olan ölkə hansı haqla, hansı ağılla digər bir ölkəyə yardım haqqında düşünür? Özü də də işğalçı bir ölkəyə bu dəstəyi, bu yardımı edirsə, buna ad qoymaq belə olmur. Əslində, İran hal-hazırda dünyanın əksər ölkələrinin də hədəfindədir və bu, o deməkdir ki, istənilən anda həmin ölkədə daha dəhşətli hadisələr törədilə bilər. Ümumiyyətlə, xarici ssenarilər fonunda bu ölkənin taleyi belə hələ sual altında qala bilər. Digər tərəfdən, azərbaycanlıların etiraz səsi İranı ayıltmadımı bəyəm? Görəsən, molla rejimi həmin o gücün, qüvvənin qarşısında tab gətirib-gətirməyəcəyi barədə düşünübmü? Yüzlərlə, hətta minlərlə insanın səsini boğmaqda İran özünü hazır hesab edə bilər, amma milyonlarla insanın səsini boğmaq heç bir dövlətin bacaracağı deyil, nəinki İranın. İndi İran adlandırılan, amma tarixi Azərbaycan torpaqları olan ərazilərdə yaşayan azərbaycanlılar, on milyonlarla insan ayağa qalxsa bu ölkənin vəziyyəti daha ağır olacaq. İstər geosiyasi baxımdan, istərsə də daxilindəki vəziyyəti, təhlükəli vəziyyəti görən molla rejimi niyə öz sərhədləri barədə deyil, Ermənistanın sərhədləri barədə düşünür? Öz sərhədlərindən də çox maraqlıdırmı qonşu ölkənin sərhədləri? Bəlkə, Ermənistanın taleyi İranı öz taleyindən daha çox maraqlandırır?

Artıq gec də olsa, İran öz taleyi barədə düşünmək məcburiyyətindədir. Molla rejimi üçün ən doğru yol burnunu başqalarının işinə soxmaq yox, öz daxili problemlərini həll etmək, bu qədər təhlükəli vəziyyəti aradan qaldırmaqdır. Üstəlik, rəsmi Tehran bölgədə stabilliyi, sabitliyi yaradan bir ölkəyə, vətəndaşlarının əksəriyyəti müsəlman olan bir ölkəyə, Azərbaycana qarşı əks mövqedə olmamalı, normal qonşuluq münasibətlərində maraqlı olmalıdır. Əks halda, bu məqam da İran üçün arzuolunmaz nəticələrə səbəb ola bilər. Azərbaycan artıq ötən əsrin sonlarında olduğu kimi zəif bir dövlət deyil, güclü potensialı var, dünyada da söz sahibidir və özünü müdafiə etmək, haqlarını tələb etmək, istənilən anda layiqli cavab verməyə əzmindədir. Onsuz da İran hansısa terrorla, hansısa təxribatla nəyə isə nail olan deyil və istənilən təxribatın öhdəsindən gəlindiyi göz önündədir. Əgər İran tərəfi belə təxribatları davam etdirmək niyyətindədirsə, eləcə də işğalçı dövlətə dəstək verərək, onu separatçılığa ruhlandırmaq fikrindədirsə, vəziyyətinin daha ağır, daha təhlükəli olacağını əvvəlcədən göz önünə almalıdır. Çünki belə təhlükəli oyunlarla həmin ölkənin vəziyyətinin heç də yaxşı olmayacağı zərrə qədər şübhə doğura bilməz və İranda hökm sürən təhlükəli vəziyyət daha ağır fazaya keçə bilər.

***İnam Hacıyev***

ANALİTİK + ŞƏRH

# “İndependent” BMT-dəki məhkəmədən yazdı

*"Azərbaycan BMT məhkəməsində: Ermənistan minalamağı dayandırmalıdır!"*


INDEPENDENT Subscribe Menu

NEWS SPORT VOICES CULTURE LIFESTYLE

News

Azerbaijan to UN court: Armenia must stop sowing land mines

Azerbaijan is appealing to the United Nations' highest court to urgently order Armenia to stop the laying of land mines and booby traps on Azerbaijani territory and disclose the location of such explosives that already have been placed

Mike Corder • 1 day ago

***Azərbaycan Birləşmiş Millətlər Təşkilatının Ali Məhkəməsinə müraciət edərək Ermənistandan Azərbaycan ərazisinə mina yerləşdirilməsinin dayandırılmasını və daha əvvəlcədən yerləşdirilən bu kimi partlayıcıların yerini açıqlamasını tələb edir. SİA xəbər verir ki, bu barədə Böyük Britaniyanın İndependent nəşri yazıb.***

**“Ermənistan 44 günlük müharibədə uğradığı məğlubiyyətindən sonra da heç bir tələblərə məhəl qoymadan - 2021-ci ilin dekabrından bəri 2700-dən çox mina basdırıb”**

Analitik şərhin müəllifi Mayk Korderin qeyd etdiyinə görə, Azərbaycan xarici işlər nazirinin müavini Elnur Məmmədov Beynəlxalq Ədalət Məhkəməsinin hakimlərinə bildirib ki, Ermənistan onilliklər ərzində vəziyyəti gərginləşdirib və Azərbaycanı öz torpaqlarını müharibə yolu ilə azad etməsindən başqa heç bir yol qoymayıb. Lakin Ermənistan 44 günlük müharibədə uğradığı məğlubiyyətindən sonra da heç bir tələblərə məhəl qoymadan - 2021-ci ilin dekabrından bəri 2700-dən çox mina basdırıb.

Onun sözlərinə görə, minalar və digər bu kimi tələlər Ermənistanın münaqişə nəticəsində öz yurd-yuvalarından məcburi köçkün düşmüş azərbaycanlıların geri qayıtmasının qarşısını almaq üçün məqsədyönlü cəhdlər göstərib. Elnur Məmmədov nəşrə bildirib ki, azərbaycanlılar öz yurd-yuvalarına geri dönmək hüququndan məhrumdurlar və bundan təhlükəsiz istifadə edə bilmirlər. ”Ermənistanın bu davranışının məqsədi və nəticəsi aydındır”, deyə XİN rəsmisi bildirib.

**”Hüquqi qarşıdurmalar iki il əvvəl başa çatmış müharibədə 6800-ə yaxın əsgərin ölümündən və 90 000-ə yaxın dinc sakinin didərgin düşməsindən sonra başlayıb”**

Analitik şərhdə qeyd edilir ki, Ermənistan tərəfindən Azərbaycanın milli-etnik, irqi ayrı-seçkiliyin qarşısının alınmasına dair konvensiyanın pozulması ilə bağlı iddiası bir neçə iş üzrə Haaqadakı məhkəmənin Baş qərargahında keçirilən dinləmələrə verilib. Bildirilir ki, hüquqi qarşıdurmalar iki il əvvəl başa çatmış müharibədə 6800-ə yaxın əsgərin ölümündən və 90 000-ə yaxın dinc sakinin didərgin düşməsindən sonra başlayıb. ”Bu ucqar və sərt keçilən region Azərbaycanın ərazisində yerləşir. Lakin Birinci Qarabağ müharibəsindən sonra Ermənistan tərəfindən dəstəklənən etnik ermənilərin nəzarəti altındadır”, deyə Mayk Kordenin məqaləsində bildirilir.

Həmçinin o da qeyd olunur ki, Rusiya 2020-ci ildəki müharibəni bitirmək üçün atəşkəsin əldə olunmasına vasitəçilik etdi və sülhməramlıları vasitəsi ilə, eləcə də tərəflərin razılığı əsasında Qarabağın bəzi hissələrinə nəzarətini 2000 nəfərlik





heyəti ilə həyata keçirməyə başladı.

**Britaniya nəşri Azərbaycanın XİN rəsmisinin dediklərinə istinad edərək bildirib ki...**

”Elnur Məmmədov bildirib ki, müharibə bitəndən indiyədək 282 azərbaycanlı, o cümlədən 33 mülki şəxs mina nəticəsində həlak olub”, deyə analitik şərhdə digər statistik rəqəmlərə də toxunulub, Azərbaycanın XİN rəsmisinin dediklərinə istinad olunaraq bildirilib ki, artıq beynəlxalq aləm erməni tərəfinin anti-Azərbaycan siyasətini anlamalı, 30 ildən çoxdur ki, Ermənistanın və separatçıların etnik təmizləmə siyasətini dərk etməlidir.

”İndependent”in siyasi şərhçisi dinləmələrdə cərəyan edən prosesə də toxunub və yazıb ki, ermənilərin vəkilləri Laçın yolunda ”blokadanın” olduğunu iddia edirlər və bunu ”etnik təmizləmə” siyasəti kimi qələmə verirlər. Azərbaycan tərəfi isə bu iddiaları rədd edərək bəyan edir ki, Ermənistan bu vasitə ilə sülh danışıqlarında rıçaq əldə etməyə çalışır. Məqalədə bildirlir ki, ”Laçın dəhlizi” kimi adlandırılan ərazi Ermənistanı Qarabağla bağlayan yeganə quru yoludur. Nəşr yazır ki, E.Məmmədovun bildirdiyinə görə, Ermənistan prosesi uzadır, dəqiq mina xəritələrini təqdim etmir və bu vasitə ilə daha çox azərbaycanlı xəsarətlər almağa və ölməyə davam edirlər.

***Rövşən RƏSULOV***



**Vəli Vəliyev**

# Ərköyün erməni xəstəliyi

Ermənilər burunlarını hər ölkənin iç işlərinə qatmaqda həvəsli görünürlər. ”Hay”lar yaşadıqları ölkələrin qanunları ilə deyil, daha çox özlərinin feodal qaydaları ilə səfa sürmək iddiasındadırlar. Təbii ki, bu davranış heç bir ölkənin ürəyindən deyil və zaman-zaman problemlər də yaşanır. Onu da qeyd etmək yerinə düşər ki, məskunlaşdıqları ölkələrdə daha çox kompakt yaşamağa üstünlük verən ermənilər Ermənistan bayrağını demək olar ki, hər addımda, həm də nümayişkaranə şəkildə göstərirlər. Kimsə bir nümunə göstərə bilməz ki, ermənilər sonradan məskunlaşdıqları ölkələrin qanunlarına, adət-ənənəsinə hörmət əlaməti olaraq iş yerlərində, evlərində həmin dövlətin atributlarından birini - bayrağını, gerbini, divardan assınlar. Elə bir fakt yoxdur. Amma əvəzində Ermənistanın bayrağını hər addımda asır, hətta xaçlarını belə fərqli şəkildə təqdim edirlər.

İsraildə baş verən son hadisəni yəqin ki, xatırlayırsınız. İsrailli gənclər ermənilərə məşhur ”Ağlama divarı”nın yanından asılmış Ermənistan bayrağını götürməyi tələb ediblər. Ermənilər isə ”bura bizim rayondur, siz buradan gedin” deyə onların üstünə hücum ediblər. Nəticədə polis işə qarışıb, ermənilərdən bir neçəsi həbs olunub. Erməni kilsəsinin keşişi hadisənin mahiyyətinə varmadan, günahkarların kim olmasından asılı olmayaraq erməni gəncləri azad etməyi polislərdən tələb edib. Hələ bu harasıdır, Ermənistanın xarici işlər nazirliyi bununla bağlı İsrail tərəfinə rəsmi olaraq etirazını bildirib. Bu yanaşma normal sayıla bilərdi, əgər dava iştirakçıları Ermənistan vətəndaşları olsaydılar. Amma erməni gənclər İsraildə yaşayırlar, yəqin ki, onların vətəndaşlığı da var. Bəs onda Ermənistan XİN hansı əsasla İstailə etirazını bildirir? Bunun da cavabını erməni xislətində, ermənilərin məskunlaşdığı ölkədə özlərini daha çox hansı ölkənin vətəndaşı hesab etmələridir.

Ermənilər sovet hakimiyyəti illərində də Azərbaycanda, xüsusilə də paytaxt Bakıda yaşayırdılar. Bu gün də Azərbaycanda Qarabağda yaşayanlardan əlavə 30 min erməni millətindən olan vətəndaşımız var. Bəziləri ad və soyadlarını gizlətsələr də erməni adı və ”yan” soyad sonluğunu üzərində gəzdirənlər də az deyil. Onlara qarşı hələ heç bir təzyiq, diskrinimasiya, yəni ayrı-seçkilik edilməsi ilə bağlı fakt yoxdur. Qarabağdakı ermənilər isə, əsasən də separatçılıqda əli olanlar, belə bir iddia irəli sürürlər ki, azərbaycanlılarla bir yerdə yaşaya bilmərik, onlar bizi öldürərlər. Necə olur ki, ermənilərlə azərbaycanlılar Gürcüstanda, Rusiyada, ABŞ-da, Fransada, Avropa ölkələrində, dünyanın müxtəlif şəhərlərində, vilayətlərində birgə yaşaya, hətta birgə biznes yarada bilirlər, amma Qarabağda yox? Bunun cavabı da çox sadədir. İmtina edənlərin demək olar ki, hamısı hərbi cinayətlərdə əli olanların özləri və ailə üzvləri, separatçılardır. Əlbəttə, onlar bizimlə yanaşı, həm də Azərbaycan qanunları ilə yaşamaq istəməzlər. Çünki, gec, ya tez həmin qanunlar onların əməllərinə layiqli cəzanın verilməsi üçün tətbiq olunacağı gün uzaqda deyil.

Ermənistan və Azərbaycan arasında hərbi toqquşmaların yenidən başlaması riski yüksək olaraq qalır. Bunu Beynəlxalq Böhran Qrupu (ICG) öz hesabatında yazır. Eyni zamanda qeyd edilir ki, Aİ-nin yeni monitorinq missiyası yeni münaqişə riskini azaltmağa kömək edə bilər. ICG-nin fikrincə, Ermənistan və Azərbaycan arasında mümkün yeni müharibə böyük insan itkisinə səbəb olacaq. Avropa İttifaqı, Rusiya və ABŞ-ın regional gərginliyi azaltmaq və Avrasiyada daha da qeyri-sabitlik yaratmaq istəyənlərin planlarını poza bilərlər. Mütəxəssislər 2022-ci ilin sentyabrında baş vermiş hərbi əməliyyatların təkrarlanması riskinin böyük olduğunu qeyd edirlər.

ICG yazır ki, Azərbaycanın böyük hərbi üstünlüyə malik olması və Rusiyanın Ukraynadakı müharibə ilə diqqəti yayındırması Bakının danışıqlarda səbrini itirəcəyi təqdirdə bu yeni cəbhədə öz üstünlüyündən istifadə etməsinin qarşısını almaq üçün çox az şey var. Yazın gəlməsi yeni əməliyyatların başlanmasına şərait yaradacaq.

ICG Azərbaycana Ermənistan üzərində üstünlük verən bir neçə amili vurğulayır. Qeyd olunur ki, ixrac olunan enerjinin kəskin bahalaşmasından əldə olunan gəlirlər hesabına Azərbaycan 2023-cü ildən hərbi büdcəsini təxminən 40 faiz artırıb, yeni komando birləşmələri və digər xüsusi təyinatlılar formalaşdırıb. Ekspertlərin fikrincə, Bakı silahlı qüvvələrini yüksək dəqiqlikli uzaqmənzilli ”yer-yer” raketləri ilə, pilotsuz uçan aparatları kimi qabaqcıl texnologiyaya sahib silahlarla daha yaxşı təchiz edib və bu proses davam etdirilir. Azərbaycan həmçinin Türkiyə ilə birgə hərbi təlimlər keçirir, ordu təkmilləşdirilir.

Eyni zamanda ICG Ermənistanın ”həm nisbi, həm də mütləq şəkildə zəiflədiyini” iddia edir. Ukraynadakı müharibə nəinki Rusiyanın diqqətini bu bölgədən yayındırdı və onun regionda sülhün effektiv təminatçısı kimi nüfuzunu azaltdı, həm də Ermənistanın təhlükəsizlik üzrə tərəfdaşı kimi potensialını azaltdı. İrəvanın silahları yoxdur, arsenalları 2020-ci il müharibəsi ilə tükənib, lakin onun ənənəvi təchizatçısı olan Moskva Ukraynadakı öz ordularına silah göndərir. Artan gərginlik fonunda İrəvan hələ də öz əsgərlərinin istifadə etməsi üçün geniş təlim tələb etməyən yeni etibarlı silah mənbəyi müəyyən etməyib. Bundan əlavə, Ermənistan Silahlı Qüvvələrinin də komandir strukturlarında sarsıntılar və aşağı əhval-ruhiyyə var.

Ermənistan belə bir şəraitdə yenə də Rusiyanı ittiham edir. Özünün düşdüyü problemdən çıxış yollarını da Rusiya ilə yanaşı digər ölkələrdə axtarır. Tapa bilməyəndə ittiham edir. Azərbaycan torpaqlarını işğal etmək ideyası ermənilərə məxsus idi, kənar qüvvələrin isə başqa marağı ola bilərdi. 30 il ərzində Ermənistan və erməni diasporu Qarabağda yaratdıqları qondarma ”dövləti” kimsəyə tanıtdıra bilmədilər. Dünya Ermənistanı işğalçı dövlət kimi tanısa da, erməni silahlı qüvvələrinin işğal etdikləri Azərbaycan ərazilərindən çıxarılması mexanizmini hərəkətə gətirə bilmədilər. Bu gün Azərbaycan öz gücünə Ermənistanı işğalçı statusundan məhrum edib, onun ordusunu darmadağın edib, sərhədlərimizdən kənara atıb. Bununla yanaşı ermənilərin xristian qardaşları hələ də Ermənistanın məğlubiyyətini həzm edə bilmirlər. Bu dəfə Azərbaycana qarşı mənasız və məntiqsiz iddialar irəli sürürlər. Hələ də erməniləri dəcəl uşaq kimi, bir az da ərköyün böyüdürlər. Ərköyün, ölçüsüz-biçisiz uşaqların yeri isə böyüyəndə ya qəbir, ya da Sibir olur. Biz elə Sibirə üstünlük verək, təki başımızdan olsunlar...

TƏRS BAXIŞ+ÖZƏL

# Tehran rejiminə məxsus sarı mətbuatın həyasız təbliğatı davam edir

## Davamlı olaraq antisemit fəaliyyəti ilə gündəmdə olan "İslam respublikasının" sarı mediası bu vasitə ilə özünü daha rəzil situasiyaya doğru sürükləyir



Azərbaycan səfirliyinə edilən terror hücumundan sonra Tehran rejiminin bu və ya digər şəkillərdə sərgilədikləri həyasız davranışları hazırda da davam etməkdədir. Belə ki, indiyə qədər Tehran rejiminin parlamentində, ali dini dairələrində və s. dövlət və hakimiyyət strukturlarında Azərbaycan dövlətinə və xalqına qarşı səslənən təhdidlərin ardınca rejimə bağlı sarı mətbuat da öz ağzın davranışlarını rəzil "ideyaları" və təhqir vasitələri ilə ortaya çıxarır. Daha dəqiq desək, Azərbaycanın Cənubi Qafqaz regionunda həyata keçirdiyi müstəqil siyasətini, o cümlədən, İsrail dövləti ilə strateji əməkdaşlığını həzm edə bilməyən rejim yalnız anti-Azərbaycan deyil, həm də antisemit xarakterli məlumatları ilə bulandırdığı suyu daha da qarışdırır.

### Tehran rejimi bu iki dost ölkənin - Azərbaycanla İsrailin bir araya gəlməsindən ciddi şəkildə hürkür



Bu dəfə daha da azğınlaşan və quduzlaşan Tehran rejiminə bağlı sarı media aşkar həyasızlıqla Azərbaycan və İsrail dövlətlərinin ali rəhbərliklərinə dil uzadıb. Məlum olub ki, hələ ötən ilin noyabr ayından bu ölkədə başlanan antisemit kampaniyaya "Javan" adlı sarı qəzet rəhbərliyi başçılıq edir. Belə ki, adıçəkilən tualet kağızı ayətullah Mzaherinin oğluna mənsubdur. Bu "orqan" özünün manşet səhifəsində iki dost ölkənin - Azərbaycanın və İsrailin ali siyasi rəhbərliyini hədəfə alan "Bakı üçün Tel-Əviv tələsi" başlıqlı yazı ilə çıxış edib. Əslində isə fakt budur ki, Tehran rejimi bu iki dost ölkənin bir araya gəlməsindən ciddi şəkildə hürkür. Əgər belə olmasa idi həmin "qəzet" İsraillə Azərbaycan müdafiə nazirlərinin telefon danışığından bu qədər xoflanmazdı.

### Gah cinayətkardan dövlət televiziyası kanalları üçün müsahibə alan, gah da terrorçunu "dəli" adı altında psixonevroloji xəstəxanaya göndərən bir hakimiyyətin düşdüyü rəzil durum

Maraqlıdır ki, Tehrandakı səfirliyimizə edilən terror hücumunu hələ də "şəxsi məişət zəminində" kimi qələmə verməyə cəhd göstərən bu sarı mətbuat parçası onu da iddia edir ki, guya "İran" hakimiyyəti həmin hadisənin istintaqını davam etdirir və s. Halbuki, burada gizli heç nə yoxdur - ortada açıq-aşkar terror aktı dayanıb və həmin terror aktının həyata keçirilməsinin sifarişçisi Tehran rejiminin xüsusi kəşfiyyat orqanlarıdır. Terroru törədən şəxs isə bu orqanlar tərəfindən cəlb edilmiş cinayətkardır. Bu qədər bəsit reallığı hələ də gizlətməyə cəhd edən, gah cinayətkardan dövlət televiziyası kanalları üçün müsahibə alan, gah da terrorçunu "dəli" adı altında psixonevroloji xəstəxanaya göndərən bir hakimiyyətin düşdüyü rəzil durum də məhz budur və həmin rəzillik indi də rejimin "mediasına" bulaşıb. Bundan isə əslində təəccüblənməyə də dəyməz. "Javan" iddia edir ki, Azərbaycanda ifşa edilən casus şəbəkəsinin ümumiyyətlə "İrana" bağlılıqları yoxdur və s. Halbuki casus şəbəkələrinə




bağlı ifşa edilən şəxslər artıq Tehran rejiminə işlədiklərini etiraf ediblər.

### Tehran rejiminin qondarma "iş adamları" adı altında göndərdiyi informatorlarından fərqli olaraq...

"Qəzet" digər tərəfdən ona da eyham vurur ki, Azərbaycanda İsraildən olan heç bir iş adamlarına toxunulmur. Lakin unudur ki, İsraildən olan iş adamları, nüfuzlu biznesmenlər bu ölkədə doğru-dürüst fəaliyyət göstərirlər və ölkənin təhlükəsizliyinə əsla və heç vaxt təhlükə yaratmırlar. Əksinə, Azərbaycanın inkişafı üçün çalışırlar. Təbii ki, Tehran rejiminin qondarma "iş adamları" adı altında göndərdiyi informatorlarından fərqli olaraq...

Ayətullahın oğluna bağlı "qəzet" ona da işarə edir ki, Bakı Zəngəzur dəhlizi ilə bağlı İrana qarşı təzyiqlərini artırmaq üçün İsrailin köməyinə arxalanır. Lakin "sionistlərin" mövcudluğu Azərbaycanın "təhlükəsizliyini" təmin edə bilməyəcək və s. Belə bir sərsəm iddianın isə belə bir cavabı da var: Azərbaycan özü-öz təhlükəsizlitini təmin edir və lazım olanda öz dostlarına, qardaşlarına güvənir, daha qondarma "islam respublikası" adı altında fəaliyyət göstərən, erməni işğalçıları ilə dodaq-dodağa öpüşən fars şovinistlərinə deyil!

### Gedib aftafa ilə unitazın məhəbbət tarixçəsini dərindən araşdırsınlar...

Xatırladaq ki, "Javan" adlı sarı kağızın "məqaləsi" "Fərda" adlı digər tualet kağızında və başqa sarı kağızlarda da dərc edilib. Yeri gəlmişkən, "Javan"a rəhbərlik edən şəxs ayətullah oğludursa, "Fərda"ya rəhbərlik edən birbaşa SEPAH-a bağlı olan və vaxtilə İRNA dövlət agentliyində çalışan "jurnalistə" məxsusdur. Necə deyərlər, hər şey ovuc içində olduğu kimi görünməkdədir. Sonda isə daha yaxşı olardı ki, Tehran rejimi ağlına və ağzına gələn zəhərli üfunətləri özlərinin tualet kağızlarına püskürməkdənsə gedib aftafa ilə unitazın məhəbbət tarixçəsini dərindən araşdırsınlar...

***Rövşən RƏSULOV***




## 5G Azərbaycanın ən sürətli şəbəkəsinin təqdimatında!

**Bakcell 5G texnologiyasını istifadəyə verib. Hazırda sınaq rejimində fəaliyyət göstərən 5G şəbəkəsi Bakının müxtəlif ərazilərində - Fəvvarələr Meydanında, Xaqani bağında (Molokan bağı) və "Dəniz Mall" ərazisində mövcuddur. Azərbaycanın ən sürətli mobil şəbəkəsinin təqdimatında 5G texnologiyasını Huawei, Xiaomi, OnePlus, Poco və Vivo smartfonlarının sahibləri istifadə edə bilər.**

Bakcell 5G texnologiyadan istifadə edən abunəçilərinə 5GB balans da hədiyyə edir. Yuxarıda adları çəkilən mobil cihaz sahibləri 5G-nin mövcud olduğu ərazilərdə olarkən telefonda *501*1# kodunu yığmalıdırlar. Əgər abunəçinin cihazı 5G texnologiyasını dəstəkləyirsə, onun nömrəsinin balansına 5 GB həcmində 5G trafiki hədiyyə olunacaq. Bu balans 1 saat ərzində 5G sınaqları keçirilən ərazilərdə istifadə edilə bilər.

Ətraflı məlumatı 5g.bakcell.com səhifəsindən əldə etmək mümkündür. Bakcell Azərbaycanda eSIM və VoLTE texnologiyalarını tətbiq edən ilk mobil operatordur. Bakcell şəbəkəsi Ookla® tərəfindən "Azərbaycanın ən sürətli mobil şəbəkəsi" kimi tanınır.

## "Nar" Gənclər Gününə həsr olunmuş tədbirdə iştirak edib

2 fevral Gənclər Gününə həsr olunmuş Tələbə Gənclər Təşkilatlarının "ReBrend" Forumu keçirilib. 110 nəfər gənc lideri özündə birləşdirən tədbirin məqsədi TGT-lər üçün optimal PR həlləri və bu sahədəki zəngin təcrübəni paylaşmaq olub. Peşəkarların öz təcrübələrini bölüşdüyü tədbirdə




"Nar"ın İctimaiyyətlə əlaqələr şöbəsinin rəhbəri Əziz Axundov "Müasir dövrün çağırışlarına cavab verən PR strategiyaları" mövzusunda çıxış edərək gəncləri maraqlandıran sualları cavalandırıb.

Azərbaycan Respublikasının Gənclər Fondunun dəstəyi ilə keçirilən forumda mütəxəssislərin vörkşoplarından əlavə, gənc liderlərə müxtəlif nominasiyalar üzrə mükafatlar da təqdim edilib.

Qeyd edək ki, ölkənin maariflənməsinə hər zaman öz töhfəsini verən "Nar" təhsil və inkişafa yönəlik layihələr həyata keçirir. Bu layihələrlə nar.az/projects səhifəsindən tanış ola bilərsiniz. "Nar" hal-hazırda 2,2 milyon abunəçiyə yüksək keyfiyyətli rabitə xidmətləri göstərməkdədir. "Nar" son 3 ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur. Mobil operator müştəriyönümlülük strategiyasına sadiq qalaraq sərfəli qiymət qarşılığında üstün xidmət təqdim edir.

# Rusiyalı politoloq:
# "İrəvan və Vardanyan Qərbin sifarişi ilə vəziyyəti gərginləşdirir"

## İqor Korotçenko: Əgər Ermənistan Rusiyaya qarşı düşmənçilik edirsə, ona qarşı müvafiq cavab tədbirləri görülməlidir

**Rusiya ilə Ermənistan arasında ziddiyyətlər getdikcə ciddiləşir-tərəflər çoxlu qarşılıqlı iddialar toplayıblar, lakin fikir ayrılıqlarının əsasında şübhəsiz ki, İrəvanın indiki məqamda siyasi kursu daha sərfəli birinə dəyişmək kimi xəyanətkar istəyi dayanır. İndi isə İrəvan Rusiyanı hədələyir, Avropa İttifaqının yeni "mülki" missiyasını qəbul edib Ermənistan ərazisində yerləşdirməyə hazır olduğunu bildirir. Bütün bunlar isə Moskvada çoxlu suallar doğurur. Rusiyalı politoloq, "Milli müdafiə" jurnalının baş redaktoru İqor Korotçenko Caliber.Aza müsahibəsində Rusiya Federasiyasının İrəvanın hazırkı siyasətini, xüsusən də onun Cənubi Qafqazda danışıqlar prosesini çətinləşdirmək və pozmaq cəhdlərini necə dəyərləndirməsindən danışıb. Müsahibəni oxucularımıza təqdim edirik.**

- Moskva ilə İrəvan arasında münasibətlər ciddi şəkildə soyuyub. Rusiya XİN-in rəsmi nümayəndəsi Zaxarova Aİ missiyasının Ermənistanda gözlənilən yerləşdirilməsi məsələsini şərh edərkən xüsusilə qeyd edib ki, "Rusiya sərhədçiləri Aİ müşahidəçilərinin davranışlarına yerlərdəki vəziyyəti nəzərə alaraq reaksiya verəcəklər". Zaxarova bəyanatında nə demək istəyirdi və biz Aİ missiyası ilə Ermənistandakı Rusiya hərbçiləri arasında real münaqişə vəziyyətlərini görə bilərikmi?

- İstənilən halda Rusiya sərhədçiləri öz vəzifə və göstərişlərinə uyğun olaraq ciddi şəkildə hərəkət edəcəklər. Aydındır ki, avropalı müşahidəçilər tərəfindən hər hansı təxribat xarakterli hərəkətlər baş verərsə, reaksiya tələb olunacaq. Vəziyyət dinamikada olduğu üçün bu reaksiyanın konkret nə ola biləcəyini söyləmək hələ də çətindir. Bununla belə, aydındır ki, Rusiyanın qərar qəbuletmə mərkəzlərində Aİ missiyasının Ermənistana göndərilməsi və İrəvanın bunu qəbul etməyə hazır olmasına müstəsna olaraq neqativ nöqteyi-nəzərdən baxılır. Moskvada bu, Paşinyanın Rusiya ilə müttəfiqlik münasibətlərini pozmağa yönəlmiş ardıcıl siyasəti, tədricən Qərb dövlətlərinin, ilk növbədə Fransanın təhlükəsizlik çətirinin açılması formatına yönləndirilməsi, gələcəkdə isə KTMT-dən çıxması və Gümrüdəki Rusiya bazasının bağlanması kimi şərh olunur. Yeni Rusiyanın qərar qəbuledici mərkəzləri tərəfindən Ermənistanda daxili siyasi vəziyyətin inkişafı ssenarisi və qiymətləndirmələri son dərəcə mənfidir: biz görürük ki, Ermənistan dost ölkədən gözlənilməz siyasət aparan ölkəyə çevrilir ki, gələcəkdə fors-major siyasi və hərbi formata gətirib çıxara bilər.

***- Sizcə, İrəvanın Rusiyanın Ermənistandakı mövcudluğunu pozmağa yönəlmiş birmənalı manevrləri ilə bağlı təkcə bəyanatlar deyil, həm də Rusiyanın bəzi hərəkətləri mümkündürmü?***

- Ermənistan suveren ölkədir və əgər İrəvan müvafiq razılaşmaları denonsasiya edərək rus sərhədçilərinin Ermənistan ərazisini tərk etməsini istəyirsə, bu, İrəvanın hüququdur. Başqa bir məsələ odur ki, Moskva neqativ tendensiyaların qarşısını alsın, operativ reaksiya versin, Ermənistanda sağlam siyasi qüvvələr varsa, onlara arxalansın. Amma Paşinyan, gördüyümüz kimi, ardıcıl olaraq, məharətlə imitasiya etsə də, getdikcə daha çox Ermənistanın xarici siyasətində Rusiyadan uzaq dönüş yaradır- bu, tamamilə göz qabağındadır. Ona görə də mən hesab edirəm ki, burada Rusiyanın Ermənistanla bağlı bütün siyasətini, erməni məsələsini ciddi təhlil etmək və yenidən nəzərdən keçirmək lazımdır və əgər bu ölkənin rəhbərliyi bu cür qara nankorluq edirsə, onda bizə Ermənistan kimi qulpsuz çamadan nəyə lazımdır.

Ən xoşagəlməz hal odur ki, Rusiya-Ermənistan münasibətlərindəki bu təlatüm Ukraynadakı xüsusi hərbi əməliyyat fonunda baş verir. Və hamı başa düşür ki, Rusiya bütün səylərini bu istiqamətdə cəmləşdirir, ona görə də bizə sakit Cənubi Qafqaz lazımdır. Ermənistanın de-fakto siyasəti isə regionda qeyri-sabitliyin yenidən yaranmasına gətirib çıxarır ki, bu da Rusiya üçün çox vacib olan Şimal-Cənub dəhlizinin fəaliyyətinə kritik təsir göstərəcək, çünki Qərb istiqamətində kommunikasiya və logistika əlaqələri məhdudlaşıb, indi Rusiyanın ixracı və idxalı bu dəhlizdən böyük ölçüdə asılıdır. Biz Aİ və ABŞ-ın burada vəziyyəti sarsıtmaq cəhdlərini Rusiyanın iqtisadi mövqeyini sarsıtmaq istəyi kimi qiymətləndiririk. Amma istər-istəməz Qərbin bu güc mərkəzləri ilə oynayan Paşinyan bilməlidir ki, o, bütün nəticələri ilə anti-Rusiya kursu seçir.






***- Sizcə, Qərbin Şimal-Cənub dəhlizinin işinə xələl gətirmək vəzifəsi burada həlledicidirmi?***

- Şübhəsiz ki. Bu isə çoxtərəfli əməliyyatdır: birincisi, münaqişə zonasını genişləndirməklə Şimal-Cənub dəhlizində sabitliyi pozmaq. Ancaq bu vəzifələrdən yalnız biridir. Və aydındır ki, Fransa Ermənistanla uzun illər davam edən münasibətləri çərçivəsində öz milli maraqlarını irəli sürmək üçün regiona girməyə çalışır. Bütövlükdə, aydındır ki, Avropa İttifaqı Rusiyanı Cənubi Qafqazdan sıxışdırıb çıxarmaq istəyir, öz imkanlarını burada genişləndirir və regional oyunçuların fikrini soruşmur. Və hətta dərin təhlil olmadan belə aydın olur ki, Aİ-nin Ermənistandakı missiyası bütün digər regional oyunçular- nə Rusiya, nə İran, nə Azərbaycan, nə də Xəzər regionunun digər ölkələri üçün sərfəli və lazımsızdır. Üstəlik, onun gələcək fəaliyyəti narahatlıq doğurur, çünki burada öz milli maraqlarını irəli sürəcək qeyri-regional oyunçuların bunu bizim, yəni region ölkələrinin, milli maraqlarımızın hesabına həyata keçirəcəkləri tamamilə açıq-aşkardır. Əgər bu gün kəşfiyyat və polis missiyasıdırsa, sabah tam hərbi missiyaya çevrilə bilər. Və burada Paşinyandan başqa heç kimin belə "xoşbəxtliyə" ehtiyacı yoxdur.

***- Regionda nəzərəçarpacaq destabilləşdirici rolu indi bir çoxları tərəfindən "Moskvanın adamı" hesab edilən qondarma "dövlət naziri" Ruben Vardanyan oynayır...***

- Rusiyada müxtəlif güc qülləri var və biz bundan irəli getməliyik. Amma Vardanyanın Cənubi Qafqazdakı rolu açıq-aydın sabitliyi pozur. İndi vəzifə Qarabağ ermənilərini Azərbaycanın hüquq meydanına sülh yolu ilə daxil etməkdir və Vardanyanın meydana çıxması bu prosesi nəinki dayandırır, hətta onu tamam başqa orbitə çevirir. Müxtəlif qiymətləndirmələr var, amma mən tamamilə əminəm ki, Vardanyan erməni lobbisi tərəfindən dəstəklənən beynəlxalq layihədir. Əlbəttə ki, bu lobbinin müxtəlif seqmentləri müxtəlif ölkələrdə, o cümlədən Rusiyada fəaliyyət göstərə bilər. Bu adamın arxasında o qədər çox skelet var ki, o, Avropaya gedəndə sadəcə korrupsiya ittihamı ilə həbs oluna bilər və şübhəsiz ki, Qərb kəşfiyyat orqanlarının Vardanyanla bağlı öz işi və kompromat sübutları var ki, bu da onu Qərb güc mərkəzlərinin maraqlarını həyata keçirmək üçün itaətkar alətə çevirir. Amma indi, məncə, Laçın yolunda azərbaycanlı ekoloqların aksiyası əsasında hansısa qərarlar paketi müəyyən edilməlidir. Hansılar? Ən azından bu yolda Azərbaycan və Rusiyanın birgə gömrük nəzarəti.

O ki qaldı blokada ilə bağlı bütün bu erməni hayqırtılarına, bütün bunlar Qərb siyasətçilərini manipulyasiya etməyə çalışan təbliğat aparatının işidir. Amma qeyd etmək istəyirəm ki, azərbaycanlı ekoloji fəalların qaldırdıqları məsələlər tamamilə düzgün və qanuni çərçivədədir: ermənilərin qanunsuz olaraq qızıl və digər faydalı qazıntılar çıxarması nəticəsində Azərbaycan təbiətinə, bütün qızıl konsentratı və digər metallara ciddi ekoloji ziyan dəyib. Bu resurslar Ermənistana ixrac edilirdi. Odur ki, erməni şirkətlərinin Azərbaycan Qarabağına vurduğu ekoloji və iqtisadi ziyan problemi Rusiya XİN zirliyi tərəfindən rəsmi səviyyədə baxılması və təhlili üçün qəbul edilir. Bunun konkret olaraq necə həll ediləcəyi, əlbəttə ki, diplomatlardan asılıdır, lakin məncə, bu, ən azı aşağıdakı çıxış yolunu təklif edir- Rusiya sülhməramlıları və Azərbaycan gömrükçülərinin Azərbaycana iqtisadi zərərin, eləcə də Azərbaycan Qarabağında separatçıların fəaliyyətinin qarşısını almaq məqsədi ilə Ermənistandan Qarabağa və geriyə yüklərə nəzarət edə biləcəyi gömrük keçid məntəqələrinin yaradılması.






***- Sizcə, Ermənistanın indiki Qərbə üz tutma siyasəti, Azərbaycanla münasibətlərin normallaşması istiqamətindəki sülh prosesindən geri çəkilmək cəhdləri nəticəsində onu nə gözləyir?***

- Onu yaxşı heç nə gözləmir. İrəvanın hazırkı siyasətinin mahiyyəti ondan ibarətdir ki, Paşinyan 10 noyabr tarixli Üçtərəfli Bəyanat və ondan sonra Rusiya, Azərbaycan və Ermənistan liderləri arasında yüksək səviyyəli razılaşmalar əsasında üzərinə götürdüyü bütün öhdəliklərdən de-fakto və de-yure imtina edib. Bu kontekstdə Paşinyanın siyasəti Rusiyanın maraqları ilə ziddiyyət təşkil edir. Və bunu siyasi konyukturanın təsiri altındamı edirmi, Qərbin məsləhəti iləmi və ya daxili siyasi vəziyyətin dəyişməsi üçünmü- bu artıq önəmli deyil. Əsas odur ki, o, Kremlin vasitəçiliyi ilə bağlanmış müqavilələri yerinə yetirmir.

Biz Ermənistanda artan anti-Rusiya mitinqlərini, Ermənistan siyasətinə, xüsusən də müdafiə və təhlükəsizlik sahəsində Qərb təsirinin nüfuz etməsini, Ermənistandan getdikcə daha çox düşmənçilik xarakterli şərhlərin artıq ictimai müstəvidə eşidildiyini görürük. Bu isə o deməkdir ki, onlar müəyyən Qərb dövlətlərinin dəstəyinə arxalanırlar-Fransa, ABŞ və bütövlükdə Avropa İttifaqının. Bunu nəzərə alaraq, Moskva xarici siyasət təhlilində Ermənistanın Rusiya ilə müttəfiqlik münasibətlərini pozaraq bərabər məsafəli formata keçməsindən ibarət real ssenarilərdən çıxış etməlidir. Bunun üçün proqnozlaşdırıla bilən dövlətlərə və ən azı Rusiyaya düşmən olmayan siyasətçilərə arxalanmaq lazımdır və bu, ticarət-iqtisadi münasibətlərə əsaslanmalıdır. Çünki iqtisadiyyat birincidir. Çünki güclü iqtisadi əlaqələr əsasında inkişaf və yüksək keyfiyyətli siyasi əlaqələr üçün zəmin var.

Və bu perspektivdə deməliyik ki, Ermənistan düşmənçəsinə davranır: o, Qərbə üz tutur və bu, Rusiyanı vəziyyəti sabitləşdirmək üçün digər təsir rıçaqlarından istifadə etməyə məcbur edir. Rusiyanın siyasəti indi yalnız Rusiyanın maraqları üzərində qurulub.

Ermənistana Rusiyanın münasibətlərini qurduğu çoxsaylı ölkələrdən sadəcə biri kimi baxmaq lazımdır. Və əgər bu ölkə Rusiyaya qarşı düşmənçilik və mənfi münasibət göstərirsə, ona müvafiq cavab tədbirləri görülməlidir.

***Tərcümə - Elçin Bayramlı***

SON SƏHİFƏ
SƏS
3 fevral
2023-cü il

## Bu futbolçudan 5 milyon avro tələb edirlər!



Təcavüz ittihamlarına görə həbs olunan Dani Alveşin sabiq klubu "Pumas" (Meksika) futbolçudan təzminat tələb edir. Qol.az xəbər verir ki, bu barədə UOL məlumat yayıb. 39 yaşlı müdafiəçi gecə klubunda bir qıza təcavüz etməkdə günahlandırılıb. Buna görə də o, həbs olunub. Alveşin saxlanılmasından dərhal sonra "Pumas" futbolçu ilə müqaviləni ləğv edib.

Klub hazırda oyunçudan müqavilənin pozulmasına görə 5 milyon dollar təzminat tələb edir. Qeyd edək ki, D.Alveş 2022-ci ildən "Pumas"da oynayırdı. O, 2006-cı ildən Braziliya millisinin üzvü olub.

# Yuxular haqqında az bilinən faktlar!

***Yuxu həyat funksiyalarını qorumaq üçün ən vacib gündəlik həyat rejimidir. Həyatımızın təxminən üçdə birini yuxuda keçirsək də, yuxu haqqında çox az şey bilirik. Əvvəlcə diqqət etmədiyimiz bir çox detal yuxularımızda görünür. Yuxular həmımız üçün sirr olaraq qalsa da, onlar haqqında çoxlu nəzəriyyələr var. Qəribə yuxularınız haqqında bəzi maraqlı faktlar.***



### RƏNGLİ ARZULAR YOXSA, QARA-AĞ ARZULAR?

Əslində bu, insandan insana dəyişən və çox vaxt nəsillərə təsir edən bir vəziyyətdir. Köhnə nəsillər yeni nəsillərə nisbətən daha çox boz rəngli xəyallara sahibdirlər. Bunun səbəbi televiziyanın həyatımıza daxil olması və indi başqa ekranlarla daha çox vaxt keçirməyimizdir. Buna görə də yeni nəsillər rəng xəyallarına daha çox meyllidirlər.

### 5 HİSSİ İLƏ YUXULAMAQ

Ən maraqlı mövzulardan biri də görmə qabiliyyəti olmayan insanların necə xəyal qura bilməsidir. Bəli, kor yuxu da buna aiddir, amma gözlədiyiniz şəkildə deyil. Digər dad, eşitmə və toxunma orqanları ilə yuxu görə bilən korlar, görən insanlar üçün təxmin etmək çətin olsa da, çox canlı yuxular görə bilirlər.

### HEYVAN İNSTİNKTİ

İnsanların digər heyvanlarla oxşar cəhətlərindən biri də yuxulardır. Alimlər bunu 100% təsdiqləyə bilməsələr də bəzi heyvanların da yuxu görməsi ilə razılaşırlar. Yuxu mərhələlərinin insanlarla oxşarlığı haqqında çoxlu məlumatlar əldə edilmişdir. Yəni evdəki pişik və ya itiniz sizin kimi yuxularında əylənir ola bilər.

### YARADICILIQ ANLARI

Yuxular zamanı zehniniz çox aktiv işləyir və əslində gün ərzində cavab tapa bilmədiyiniz suallara və ya üzərində işlədiyiniz mövzuya cavab tapmağınıza kömək edə bilər. Misal üçün; Beatles qrupunun əfsanəvi üzvü Pol Makkartin yuxusunda dünyanın ən böyük hitlərindən olan "Yesterday" mahnısını bəstələyib. Odur ki, xəyallarınızı seyr edərkən diqqətli olun. Xəyallarınızda həyatınızı dəyişən ixtiralar edə bilərsiniz.

Sizcə hər gecə yuxunuzda gördüyünüz insanları həqiqətən tanımırsınız. Əslində tanımadığınız insanlarla danışdığınızı düşündüyünüz və ya izdihamlı yuxular içində olduğunuz anlar birdən-birə yaranmır. Həyatınızın bir dönəmində yuxunuzda gördüyünüz insanları mütləq görəcək və ağlınıza yazdıracaqsınız. Beləcə yuxularınızda beyniniz bu üzləri tapıb yuxunuzda sizə təqdim edir. Bu araşdırma isə üz tanımadan məsul olan beyin bölgələrinin dərin yuxu dediyimiz yuxu mərhələsində ən yüksək fəaliyyət nisbətində işlədiyini ortaya qoydu.

Səhər yuxudan duranda heç bir yuxunu xatırlamamağınız yuxu görmədiyiniz demək deyil. Orta hesabla bir insan hər gecə birdən çox yuxu görür. Amma onun 95%-i yadda qalmayıb. Odur ki, xatırladığınız yuxuların əksinə çoxlu yuxuları unutduğunuzu nəzərə alsaq, gördüklərinizi yadda saxlamağa çalışmaq yaxşı bir zehni məşq ola bilər.

### GENDER FAKTOR

Kişilərin və qadınların gündəlik həyatda tutduqları mövqelər çox da fərqli olmaya bilər, lakin onların xəyallarının məzmununda müəyyən fərqlər var. Qorxu mövzuları kişi və qadın yuxularında fərqli şəkildə fəaliyyət göstərir. Hücum və şiddətə əsaslanan qorxu mövzularına kişilərdə daha çox rast gəlindiyi halda, qadınlarda rədd edilmə və ya tək qalmaq kimi fərqli əsas qorxuların yuxularda göründüyü müəyyən edilmişdir.

### YEYİN, İÇİN, YATIN

Bəzi qidalar yuxuya getməyinizi asanlaşdıran maddələr ehtiva edir. Misal üçün; qatıq, banan, albalı, balqabaq toxumu və hətta hinduşka yeməkləri kimi süd məhsulları bu siyahıdadır. Xüsusilə yuxusuzluq problemi olan insanlar bu qidaları istehlak edərək yuxuya getmələrinə kömək edəcək bir pəhriz formalaşdırılmalıdır.

***Sədaqət Bayramova***



## Martda 14 gün iş olmayacaq

Mart ayında bayramlarla əlaqədar qeyri-iş günlərinin sayı müəyyənləşib. SİA xəbər verir ki, martın 8-i Beynəlxalq Qadınlar Günü, 20, 21, 22, 23, 24 mart Novruz bayramı ilə əlaqədar qeyri-iş günləridir. Beləliklə, martda həftəsonları da daxil olmaqla 14 gün iş olmayacaq.

# DİQQƏT:

## Uşaqları cinsi istismar edənlər belə cəzalandırılacaqlar

**"Bildiyimiz kimi, Prezident İlham Əliyev Cinayət Məcəlləsinə, Ailə Məcəlləsinə, Uşaq Hüquqları Haqqında qanuna dəyişiklik edilməsi barədə müvafiq qanunu təsdiqləyib. Uşaqlara qarşı seksual xarakterli zorakılıq hərəkətlərinə görə cəzalar sərtləşdirilib". Bu sözləri SİA-ya açıqlamasında Hüquqi-Sosial Yardım və Maarifləndirmə İctimai Birliyinin sədri Fariz Əkbərov deyib.**

Onun sözlərinə görə, belə ki, qanunla Məcəllənin 150-ci (Seksual xarakterli zorakılıq hərəkətləri) maddəsinə dəyişiklik edilib: "Dəyişikliklə zərərçəkmiş şəxsə və ya başqa şəxslərə zor tətbiq etməklə və ya belə zor tətbiqetmə hədəsi ilə və ya zərərçəkmiş şəxsin köməksiz vəziyyətindən istifadə etməklə uşaqbazlıq və ya seksual xarakterli digər zorakılıq hərəkətləri etməyə görə 4 ildən 8 ilədək azadlıqdan məhrumetmə ilə cəzalandırılacaq".

Fariz Əkbərov sözlərinə belə davam edib: "Başqa sözlə, yetkinlik yaşına çatmayan şəxsə qarşı zorlama, yeni zərərçəkmiş şəxsə və ya başqa şəxslərə qarşı zor tətbiq etməklə və ya belə zor tətbiqetmə hədəsi ilə və ya zərərçəkmiş şəxsin köməksiz vəziyyətindən istifadə etməklə onunla cinsi əlaqədə olmaya görə üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə on ildən on beş ilədək müddətə azadlıqdan məhrum etmə cəzası tətbiq ediləcək.



Qanuna əsasən, yetkinlik yaşına çatmayan şəxs (uşaq) 18 yaşına çatmayan şəxs hesab olunacaq. Əmək Məcəlləsinə əlavə edilən yeni 17-1 maddəsində əksini tapıb. Yeni maddəyə əsasən, uşaqlara qarşı cinsi istismar və ya cinsi zorakılıqla bağlı cinayətə görə məhkum olunmuş şəxslər uşaqlarla müntəzəm təmasla əlaqədar işə qəbul (təyin) və ya cəlb edilə bilməyəcəklər".

***Ayşən Vəli***

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyov
küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 3600**